www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 noyabr 2017-ci il Bazar ertəsi № 247 (6861) Qiyməti 60 qəpik

**Xəbər**

## Masallıda tanınmış iş adamı sükan arxasında öldü

yazısı səh.14-də

**Gündəm**

### Avropadan Bakıya mühüm jest - savaş haqqımız təsbit edildi



Ərazi bütövlüyümüzə dəstəyin ardınca Brüsseldən Qarabağla bağlı xəbərdarlıq da gəldi - işğalçı rejimə zərbə

yazısı səh.11-də

### Bahalaşma Yeni ilə bir ay qalmış başladı - əməkdaşımızın dükan-bazardan qeydləri

yazısı səh.5-də

### Avropa Birliyi ilə saziş Ermənistanın blokadasını zəiflədə bilərmi? - iki rəy

yazısı səh.9-da

### Misirdə terror dəhşəti: İŞİD-in gücü, yoxsa siyasi sifariş?

yazısı səh.12-də

### Keçmiş ANS-çilər müxtəlif kanallarda, ümidlə gözləyirlər

yazısı səh.5-də

### Rusiya ermənilərinin azərbaycanlılardan fəal olmasının 2 səbəbi

yazısı səh.6-da

### Ərdoğan-Tramp danışığı bölgədəki vəziyyəti dəyişə bilər

yazısı səh.12-də

### Həkimdən SOS: "Azərbaycana SPİD ən çox Rusiyadan daxil olur"

yazısı səh.14-də

### İnfarkta aparan 5 faktor: tanınmış kardioloq qəfil ölümdən qaçmağın yolunu göstərdi

yazısı səh.13-də

### Saatlıda pambıq əkən fermerin torpağını əlindən alırlar - özbaşınalıq

yazısı səh.14-də

## ATƏT-in Minsk Qrupu tarixin arxivinə verilir?

# BÖYÜK QARABAĞ ANLAŞMASI ÜÇÜN UNİKAL MODEL: RUSİYA "KARTLARI" DƏYİŞİR

Suriya anlaşması Moskva, Ankara və Tehranın Cənubi Qafqazda da ortaq məxrəcə gəlməsini yaxınlaşdırır; üçlü həmsədrlik əvəzinə "regional üçlük" - mümkünsüz olan mümkünə çevrilə bilər, əgər...; **rusiyalı analitik:** "Şansı qaçırmaq Ermənistan üçün ölümcül olacaq..."




yazısı səh.8-də

## Yavər Camalovun qardaşı oğlunun adı yeni qalmaqalda

Nazirin qohumunun bankdan kreditlə aldığı "BMW X6"nı Gürcüstanda satması iddiası var; **Nağı Əliyev-Kəngərli:** "O, nazirin qardaşı oğludur deyə, mənə qarşı belə saxtakarlıq olmalıdır?"

yazısı səh.10-da



*Fazil Mustafa:*

### "Əvvəl mərsiyə, ardınca meyxana, indi də "hara gedirsən, ayə..."

yazısı səh.7-də



### Məhkəmə "8-ci kilometr" bazarını Fərhad Əliyevin adına çıxardı

yazısı səh.10-da



### Bu həftə İlqar Məmmədovla bağlı qərar veriləcək - gözlənti

yazısı səh.3-də

**27 noyabr 2017**

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017



## Putin şərtləri diktə edir, pullar yenə sel kimi axır...

**50 ildən artıq dövr ərzində Səudiyyə Ərəbistanının neft naziri OPEC-in növbəti iclasında hansı qərarların qəbul edilə biləcəyinə dair cəmi iki söz deməklə neftin qiymətlərinə təsir göstərə bilərdi. Nəticədə insayderlər milyonlarla, hətta milyardlarla dollar qazanc əldə edirdi. İndi isə hər şey dəyişib. OPEC-in neftin qiymətinə təsir imkanı qalsa da, bu məsələdə həlledici rolu səudiyyəlilər deyil, Rusiya prezidenti Vladimir Putin oynayır.**

Virtualaz.org xəbər verir ki, bu sətirlər "Bloomberg"in OPEC və bu kartelə daxil olmayan neft ölkələrinin gələn həftə noyabrın 30-da keçiriləcək yığıncağı ərəfəsində dərc etdiyi təhlildəndir. Vyanada OPEC+ formatında keçiriləcək toplantıda neft hasilatının məhdudlaşdırılmasına razılaşmanın uzadılması məsələsinə baxılacaq. Hansı ki, bu razılaşma sayəsində neftin qiymətinin "dibə vurmasının" qarşısı alınıb, hazırda qara qızılın bir barreli 64 dollara yaxındır və nəticədə Rusiya da daxil olmaqla neft ölkələri yenidən neft pullarının sel kimi axdığı günlərin geri qayıtmasından məmnun görünür.

"Putin dünya energetikasının çarı oldu"-bunu Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş analitiki Helim Kroft deyir. O, Nyu-Yorkda RBC Capital Markets konsaltinq şirkətində qlobal əmtəə strategiyaları üzrə araşdırmalara rəhbərlik edir.

OPEC-in yüksək rütbəli rəsmisi isə adının açıqlanmaması şərti ilə bildirib ki, Putin hazırda şərtləri diktə edir. "Bloomberg" neft bazarında şərtləri Putinin diktə etdiyinə misal olaraq onun Səudiyyə kalı Salmanın Moskvaya səfəri ərəfəsində verdiyi bəyanatı xatırladır. Putin bildirmişdi ki, OPEC+ razılaşması gələn il də uzadıla bilər, hərçənd bu məsələdə yekun qərar verilməyib. Buna baxmayaraq Putinin bəyanatı kifayət etdi ki, neftin qiymətləri qısa müddət də olsa kəskin artsın.

Agentlik qeyd edir ki, Kremlin OPEC üzərində getdikcə artan təsiri dünya arenasında iqtisadi, diplomatik, hərbi və kəşfiyyat tədbirlərinin geniş arsenalından istifadə etməklə ABŞ-ın nüfuzunu azaltmağa yönəlmiş siyasətinin tərkib hissəsidir. Gözlənilir ki, noyabrın 30-da Vyanada neft hasilatının məhdudlaşdırılmasına dair razılaşma qüvvədə saxlanılacaq. Bu zaman Putinin mövqeyi növbəti dəfə diqqət mərkəzinə gələcək. "Ortada bütün maraqlı ölkələrin, o cümlədən Putinin bu sövdələşməyə cəlb etdiyi Azərbaycan və Qazaxıstan kimi keçmiş sovet respublikalarının iqtisadi və siyasi maraqları var. Bu görüşün iştirakçısı olacaq ölkələr dünya neft hasilatının 60 faizini təmin edir" - agentlik qeyd edir.

## Gələn il Azərbaycanda daha 50 mehmanxana açılacaq

**"Azərbaycanda gələn il daha 50 mehmanxana açılacaq". Musavat.com fed.az-a istinadən xəbər verir ki, bu barədə Bakıda keçirilən "Azərbaycan Turizm Forumu"nda paytaxtda fəaliyyət göstərən otellərdən birinin rəhbəri olan Ceyhun Aşurov bildirib.**

Onun sözlərinə görə, xarici turistlərin sayında artım var. Təkcə ötən il Azərbaycana 2 milyon 249 nəfər turist gəlib. "Turist sayının çox olmasına baxmayaraq marja azalıb. Çünki iqtisadi vəziyyəti nəzərə alsaq görərik ki, xərclər gəlirdən çox olub. Mehmanxana sayında da artım olub. Statistikaya görə, ötən il mehmanxanaların sayı 563 olub, 760 turizm şirkəti açılıb. Gələn il isə əlavə 50 mehmanxana açılacaq. Onuda qeyd edim ki, bu sektor tərəfindən bu il dövlətə ödənilən vergilərin həcmi də artıb".

C.Aşurov dünya üzrə turizm sektorunda müştərilərin azalma səbəblərini də qeyd edib. O bildirib ki, dünya üzə aparılan statistikaya görə, azalmada əsas səbəb kimi müştərilərin 1%-nin ölməsi, 5%-nin yeni vərdislərə görə bu sektoru tərk etməsi, 9%-i qiymətə görə, 68%-nin isə laqeydliyə görə ayrılmasıdır.

# "Atama qovuşacağım günə lap az qalıb"

**Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri (BQXK) Dağlıq Qarabağda saxlanılan şəxslərlə görüşüblər. Bu barədə məlumat verən BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib ki, noyabr ayı ərzində Dağlıq Qarabağ münaqişəsi nəticəsində saxlanılan şəxslərə bir daha başçəkməbaş tutub.**



"Şəxslərin saxlanma şəraiti, onlarla rəftar monitorinq edilib. Onlara ailələrindən məlumatlar çatdırılıb, həmçinin ailələrinə çatdırılması üçün onlardan məlumatlar götürülüb" - məlumatda qeyd edilib. Şahbaz Quliyev ailəsinə yazdığı məktubda hər şeyin normal olduğunu bildirib. Həmçinin, ailə üzvlərinə ondan nigaran qalmamalarını tövsiyə edib.

Digər həmvətənimiz Dilqəm Əsgərovun oğlu Kürdoğlu Əsgərov Modern.az-a atasından məlumat aldığını bildirib: "Atam sonuncu məktubunu noyabrın 1-də yazıb. Hər şeyin yaxşı olduğunu deyir".

D.Əsgərov və Şahbaz Quliyevin bir-birilə təmaslarına gəlincə, K.Əsgərov atasının həbsxanada tək saxlanıldığını bildirir: "Atam kişidir. Kişi kimi yaşayıb, kişi kimi də yaşayır, orada da kişi kimi tək qalır".

4 ilə yaxındır Qızıl Xaç Komitəsindən məlumat aldıqdan sonra saytımıza mütəmadi açıqlamalar verən və həmişə ümidsiz olan K.Əsgərov ilk dəfə olaraq, bu qədər inamlı danışır: "Atamın qayıdışına lap az qalıb. Son 1 il 6 ay. Mən ali baş komandanımız, cənab İlham Əliyevə, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənova güvənirəm. Atam qayıtdıqdan sonra bilinməyən çox şeyləri öyərənəcəksiniz. O zaman hər şeyi daha yaxşı anlayacaq hər kəs. Hər şeyin vaxtı var. İndi üçün yalnız onu deyə bilərəm ki, Dilqəm Əsgərov orada təklənib, kişi kimi tək mübarizə aparır".

Qeyd edək ki, hazırda Dağlıq Qarabağda üç azərbaycanlı saxlanılır. 2014-cü il iyul ayında Dilqəm Əsgərov və Şahbaz Quliyev Kəlbəcərdə öz ata-baba yurdlarını ziyarət etmək istəyərkən Ermənistan Silahlı Qüvvələri tərəfindən girov götürülüblər. İşğal altındakı Dağlıq Qarabağda D. Əsgərov və Ş. Quliyev üzərində "məhkəmə" qurulub. "Məhkəmə"nin qərarı ilə D. Əsgərov ömürlük, Ş. Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib. Üçüncü azərbaycanlı Elnur Hüseynzadə isə bu ilin fevralında Talış kəndi istiqamətində naməlum şəraitdə ermənilərin əlinə düşüb.

# İtalyan yazıçısı Azərbaycan qaz kəmərinə qarşı sabotaja çağırdı




**İtaliyada məşhur yazıçı-şair Erri De Luka Azərbaycan qazını Avropaya nəql edəcək TAP qaz kəmərinə qarşı sabotaja çağırıb. Virtualaz.org İtaliya KİV-lərinə istinadən xəbər verir ki, yazıçı kəmərin tikintisinin davam etdiyi Melandunyonun bir neçə kilometrliyində yerləşən Leççedə tələbələr qarşısında çıxışı zamanı kəməri "ictimai ələsalma" adlandırıb və əhalini bu kəmərə qarşı sabotajlara səsləyib.**

"TAP onun tikintisinə qarşı çıxan sakinlərin və bələdiyyələrin etirazlarına baxmayaraq davam etməkdə olan ictimai ələsalmadır. Mən inanıram ki, TAP sabotaj olunacaq" - Erri De Luka bildirib.

Bundan əvvəl yazıçı İtaliyada sürətli dəmir yol qatarı layihəsinə qarşı çıxıb və bu layihəyə qarşı sabotaja çağırıb. Erri De Luka buna görə məhkəməyə də verilib. Ancaq məhkəmə onun sabotaj çağırışının zorakılığa səbəb olmadığı qənaətinə gələrək iddianı təmin etməyib.

Erri De Luka Leççe əhalisini TAP-a qarşı "bir olmağa" səsləyərək deyib ki, onun fikrincə yerli ictimaiyyətin yekdil mövqeyi kəmərin çəkilməsini ləngidəcək, işləri sabotaj edəcək.

Xatırladaq ki, İtaliyanın Leççe və Melandunyo əyalətlərində vaxtarışı olaraq TAP kəmərinə qarşı etirazlar təşkil olunur, kəməri çəkən şirkətin ofisinə, texnikasına zərər vurulur. Bu etirazları şoumen-siyasətçi Beppe Grillonun "No TAP" ictimai komitəsi təşkil edir. Grillo Rusiya ilə sıx əlaqələrə malikdir.



## Bu gün Bakıda 12° isti olacaq

**Noyabrın 27-də Bakıda və Abşeron yarımadasında gözlənilən hava şəraiti açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə istinadən xəbər verir ki, bu gün paytaxtda havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturu gecə 3-6° isti, gündüz 9-13° isti, Bakıda gecə 4-6° isti, gündüz 10-12° isti olacağı gözlənilir. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunundan 768 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-80 %, gündüz 55-65 % olacaq.

Azərbaycanın rayonlarında da əsasən yağmursuz hava gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman. Lakin axşama doğru bəzi şərq rayonlarında yağış, dağlıq rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Qərb küləyi gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 4-9° isti olacağı gözlənilir.

## ABŞ-ın ən uzunömürlü sabiq prezidenti oldu

**Ata Corc Buş ABŞ- tarixində ən uzunömürlü sabiq prezident kimi özünəməxsus rekord sahibi olub. APA-nın TASS agentliyinə istinadən verdiyi məlumata görə, dünən ABŞ-ın 41-ci prezidenti həyatında 93 il 166 günü arxada qoyub.**

C. Buş bununla 2006-cı ilin dekabrında vəfat etmiş ABŞ-ın 38-ci prezidenti Cerald Forda məxsus 93 il 165 günlük rekordu arxada qoyub.

**Həbsdə olan REAL sədri İlqar Məmmədovun azadlığa buraxılması ilə bağlı Avropa Şurasının Azərbaycana növbəti dəfə verdiyi vaxt noyabrın 29-da başa çatır. Bu baxımdan rəsmi Bakı üçün kritik həftənin başlandığını demək olar. Vicdan məhbusu azad edilməsə, AŞ-ın Nazirlər Komitəsi Azərbaycanın Avropa Konvensiyasının 46.4 maddəsi ilə öhdəliyini yerinə yetirib-yetirməməsi məsələsi üzrə dekabrın 5-də Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək niyyətindədir.**

# Bu həftə İlqar Məmmədovla bağlı qərar veriləcək - gözlənti

## **Fazil Mustafa:** "Ümid edək ki, noyabrın 29-na qədər müsbət addım atılar"
## **Əliməmməd Nuriyev:** "Bu məsələdə anlaşma olacaq"

İ.Məmmədov məsələsinin çözülməsi tələbləri getdikcə artmaqdadır. Bu iddia da var ki, gedən proseslər Azərbaycanın Avropa Şurasından çıxarılması təhlükəsini artırır.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin üzvü, **Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** bildirdi ki, Avropa qurumlarının müxtəlif adlarla tanıdığı, tələb etdiyi şəxslərlə bağlı qərar vermək lazımdır: "Bəhanə verməmək, ölkənin hər hansı bir qlobal probleminin həllində əngəllərlə qarşılaşmamaq üçün addımlar atılmalıdır. Çox güman ki, bu addımlar düşünülür. Açığı, son müzakirələrin mahiyyəti barədə məlumatsızam. Amma bildiyim odur ki, bu addımlar atılsa yaxşı olar. Belə olan təqdirdə Azərbaycan Avropa ilə diskussiya aparmaq üçün daha geniş imkanlar qazanar. Hər dəfə "bu tutulub onu burax, o tutulub bunu burax" kimi bəhanələrlə əsas problemlərdən yayınmamız baş verir. Məncə, buna yol vermək olmaz. Hər halda ümid edək ki, noyabrın 29-a qədər müsbət addım atılar".

**Əfv Komissiyasının üzvü, hüquqşünas Əliməmməd Nuriyev** məsələnin bu şəkildə qoyulmasının əleyhinədir: "Kritik bir həftənin Azərbaycan üçün olduğunu düşünmək doğru deyil. Təbii ki, Avropa Şurası Azərbaycan üçün önəmli platformalardan biridir. Azərbaycan bu platformaya daxil olmaqla, yeni bir dövlət olaraq özünün baxışlarını təqdim etmək üçün o zaman imkanlar qazandı. Eyni zamanda, Avropa standartlarının milli maraqlarımıza uyğun olaraq tətbiq edilməsi üçün imkanlar əldə etdi. Avropa Şurasının nizamnaməsini qəbul etməklə, müəyyən öhdəliklər götürməklə yanaşı, Avropa Şurası da ölkəmiz qarşısında müəyyən öhdəliklər götürmüş oldu. Bu illərə ərzində normal əməkdaşlıq qurulmuşdu. Düzdür, son illərdə təəssüflər olsun ki, Avropa Şurasında müəyyən qüvvələr peyda oldu ki, ölkəmizə qarşı yanaşmalarında qərəzli münasibət nümayiş etdirdilər. Siyasi mənfəətlərini ortaya qoymağa diqqət yetirdilər. İkilisandartdan çıxış etmələrin şahidi də olmuşuq. Yeri gəldi gəlmədi, əsaslı oldu olmadı, yanlış yanaşmalar ortaya qoyuldu. Avropa Şurasının rəsmi şəxslərinin Azərbaycana münasibətləri nəticəsində bütövlükdə qurumun öz maraqlarını hər şeydən üstün tutduqlarının da şahidi az olmadıq. Bunlar təəssüf doğuran hallardır. Bir sıra məsələlər var ki, tərəfləri qane etmir. Bunun da müzakirələr yolu ilə həllinə nail olmaq mümkündür. Amma təəssüf edirəm ki, Avropa Şurasının bəzi rəsmiləri tamam fərqli münasibət göstərməyə cəhdlər edirlər. Azərbaycan prezidenti cənab İlham Əliyev bu məsələlərlə bağlı Yeni Azərbaycan Partiyasının 25 illik yubileyinə həsr edilmiş tədbirdə çıxışı zamanı mövqeyini nümayiş etdirdi. Bildirdi ki, Azərbaycan milli maraqlarının təmin edilməsi istiqamətində addımları ardıcıl olaraq atacaq. Azərbaycan qurumları, AŞ PA-dakı nümayəndə heyətimiz, ölkəmizin xarici siyasət təsisatları çalışır ki, münasibətlər normallaşsın".



İlqar Məmmədov

Ə.Nuriyev ümumi anlaşmanın olacağına ümid edir: "Avropa İnsan Haqları Məhkəməsinin müxtəlif ölkələrlə bağlı çıxardığı qərarların vaxtında icra edilməməsinin indinin özündə də şahidi olmaqdayıq. Hətta Avropa Şurasına üzv ölkələrdən bəzi Qərbi Avropa ölkələrinin Avropa Məhkəməsinin qərarlarını icra etmədiyinin şahidiyik. Söhbət on illərlə qərarın icra edilməməsindən gedir. Azərbaycanla bağlı bir qətnamənin icra edilməməsini bütövlükdə ölkənin Avropa Şurasından çıxarılması ilə təhdid edilməsinin özü adekvat bir davranış deyil. Mübahisəli olan bir məsələ ilə bağlı bu qədər dərinə gedilmənin özünü izah etmək çox çətindir. Bu Avropa Şurasına üzv ölkələrin rəyi kimi qəbul edilə bilməz. İnanıram ki, bu məsələdə anlaşma olacaq. Çünki Azərbaycan üçün Avropa Şurası nə qədər əhəmiyyətlidirsə, Avropa Şurası üçün də ölkəmiz o dərəcədə dəyərli bir müttəfiqdir, tərəfdaşdır. Günlər öncə cənab prezident "Şərq Tərəfdaşlığı" sammitində iştirak etdi. Ölkəsinin Avropa İttifaqı ilə əlaqələrinin daha dərinləşdirilməsi üçün atdığı addımların mühümlüyü barədə fikirlərini səsləndirdi, mövqeyini ortaya qoydu. İnanıram ki, Avropa Şurası öz mənfəətlərindən çıxış edərək, qərəzli mövqelər səsləndirən ayrı-ayrı şəxslərin mövqeyindən çıxış etməyəcək, öz dəyərlərinə sadiq qalıb, bu yöndə addımlar atacaq".

❑ **Cavanşir ABBASLI**

# Gömrük Komitəsinin sədri Aydın Əliyev Daşkəsəndə vətəndaşları qəbul edib





**Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq noyabrın 24-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı hörmətli Aydın Əliyev Daşkəsəndə Daşkəsən, Samux, Göygöl rayonları və Gəncə şəhər sakinlərini qəbul edib.**

Musavat.com xəbər verir ki, Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev ilə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev qəbuldan əvvəl ümummilli lider Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoyaraq Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Qəbul zamanı bölgədə yaşayan sakinlərin gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib.

Komitə sədri qəbula yazılmış vətəndaşların müraciətlərinin araşdırılması və qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun olaraq həllinə dair Komitənin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verib. Eyni zamanda da səsləndirilən müxtəlif təkliflər, şikayət xarakterli müraciətlər tədbirlər görülməsi üçün nəzarətə götürülüb.

Qəbulda qaldırılan məsələlərin bir qismi yerindəcə həll edilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə müvafiq qurumlara çatdırılması üçün qeydiyyata alınıb.

Daşkəsəndə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin qəbuluna gələn vətəndaşlar müraciətlərə baxılması üçün yaradılan şəraitdən razılıq edərək göstərdiyi ali diqqət və qayğıya görə möhtərəm prezident İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

❑ **Musavat.com**







YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017



# “İsgəndər”lər “Metsamor” AES-i qoruyur?

## Yaşar Aydəmirov: “Cəfəngiyatdır, bu sistemlər hava hücumundan müdafiə üçün nəzərdə tutulmayıb”



Yaşar Aydəmirov

**Rusiyalı tanınmış jurnalist və siyasi şərhçi Maksim Şevçenkonun səsləndirdiyi son fikirlər geniş müzakirələrə səbəb olub. O tam təsdiqlənməsə də, ölkəsinin Ermənistana verdiyi ehtimal edilən “İsgəndər” raketlərinin Cənubi Qafqaz üçün təhlükə mənbəyi olan “Metsamor” Atam Elektrik Stansiyasını qoruduğunu dilə gətirib.**

Onun bu açıqlamasının mümkünlüyü barədə mövqelər müxtəliflik təşkil edir. Naxçıvandan cəmi 50 kilometr məsafədə yerləşən “Metsamor” AES-in ermənilərin əlində Azərbaycana qarşı əsas təhdid faktoru olduğunu, bu baxımdan rus şərhçinin açıqlamasının təsadüf olmadığı qeyd olunur. Azərbaycan tərəfin bu təhdid mənbəyini aradan qaldırmaq üçün cavab tədbirləri görməsinin vacibliyindən söz açılır. Ermənilərin məhz atom elektrik stansiyasına görə bəzi hallarda arxayın olduqları bildirilir. Yəni bor növ Azərbaycanın bu məsələdə ehtiyatlı davranacağını düşünürlər.

Ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov “Yeni Müsavat”a açıqlamasında rus şərhçinin fikirlərinin cəfəng olduğunu bildirdi: “İsgəndər” raketləri əməliyyat taktiki raketləridir. Bunlar hava hücumlarından müdafiə sisteminin raketləri deyil. Digər tərəfdən, Azərbaycanın Ermənistandakı Atom Elektrik Stansiyası ilə nə işi var? Azərbaycan o dərəcədə tərbiyəsiz deyil ki, onların bu Atom Elektrik Stansiyası partlasa, onun qurğusunda nasazlıq olsa, radioaktiv axın baş versə, Azərbaycana da xələl gətirər. Bu şübhəsizdir. Bu baxımdan Şevçenko düzgün fikirlər səsləndirmir. Digər tərəfdən hələ sübut etmək çətindir ki, ermənilərin silahlanması üçün “İsgəndər” raketləri alınıb, ya yox. Çünki biz paradlarda görmüşük ki, onların heyətləri hansılardır. Sözsüz ki, “İsgəndər” raketləri digər dövlətləri təhdid etmək, qorxu altında saxlamaq üçün olan silahdır".

Y.Aydəmirov Azərbaycanın daha modern silahlarının olduğunu də dilə gətirdi: “Azərbaycanın "İsgəndər" adında olmasa da, başqa ona oxşar, ondan da səviyyəli olan modernləşdirilmiş digər raket sistemləri var. Onların adını açıqlamaq istəmirəm. Təkcə bir sistem deyil. Ermənilər “İsgəndər”dən xalqı sakitləşdirmək üçün istifadə edirlər. Bu amil ermənilərin arxayınlaşması üçün əsas faktordur. Ən savadsız insan belə bilir ki, Azərbaycanın gücü nədən ibarətdir, Ermənistan gücü nədən ibarətdir. Eləcə də, bizim və onların silahlı qüvvələrinin gücləri də hər kəsə məlumdur. Azərbaycan və Ermənistanın nə vaxta qədər müharibə aparmaq gücünə qadir olduqları da heç kəsə sirr deyil. Ermənilərin maddi texniki təminat bazaları varmı? Silah-sursat cəhətdən ehtiyatları varmı? Səfərbərlik ehtiyatlarının da nə yerdə olduğunu bilməyən yoxdur. Bütün bu sualların cavabını onlar da yaxşı bilirlər. Ona görə də bu cür qondarmalar edirlər. Onlar heç bir zaman Azərbaycanla ayaqlaşa bilməyəcəklər. Dediklərim təbliğat sözləri deyil. Biz olan şeyləri deyirik. Onlar bizimlə ayaqlaşmaq üçün bu cür cəfəng fikirlər səsləndirirlər. Azərbaycan bir gündə onların bütün sistemlərini susdura bilər, əgər onlar komanda alsalar. Azərbaycan ermənilərin yerləşdiyi bütün istiqamətlərə sarsıdıcı zərbə endirmək iqtidarına qadirdir. Kifayət qədər silah var, özü də bu silahların çoxu yeni alınmış, müasir silahlardır. Amma Ermənistanda bu imkanlar yoxdur. Ona görə onlar dillərinə güc verirlər. Görünür sözləri də tükənib, analitikləri pul və başqa vasitələrlə bu tərzdə danışdırırlar. Bu sözlərin Azərbaycana da təsir etmədiyini bilməmiş deyillər. Sadəcə özləri-özlərini arxayınlaşdırırlar. Ermənilərin rəhbərləri nə qədər küt olsalar da, heç vaxt müharibəyə girişməzlər, sözsüz ki, havadarı tərəfindən təhrik edilməsələr. Əgər bu olarsa, cavab zərbəsi kimi on, yüz qat demirəm, çox sarsıdıcı bir zərbə ola bilər. Bunu bilə-bilə heç vaxt o addımı atmazlar".

❑ Cavanşir ABBASLI

---

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən həftə Dağlıq Qarabağ münaqişəsinin həllində yeganə gücün Rusiya və ən önəmli şəxsi kimi Vladimir Putin olması barədə dedikləri hələ də gündəmdədir. Türkiyə liderinin fikirləri ilə bağlı səslənən mövqelər diqqət çəkir.**



# Qarabağ münaqişəsinin həlli Putindən, yoxsa Kremldən asılıdır?

Əsas sual da elə Putinin personası üzərində cəmləşib. Bəs Putinin iqtidardan getməsi ilə Kremlin Qarabağ münaqişəsindəki mövqeyinə hansısa təsirlər mümkünmü, yoxsa yenə hər şey eyni dərəcədə növbəti prezidentdən asılı olacaq?

Doğrudur, əksəriyyət Rusiya münaqişə ilə bağlı oturuşmuş siyasətinin olduğunu düşünərək, bu ölkədə baş verə biləcək istənilən rəhbər dəyişikliyinin Qarabağ siyasətinə təsir etməyəcəyini düşünür. Amma bununla belə, 17 ildir şimal qonşumuza rəhbərlik edən Putinin Ermənistan-Azərbaycan arasındakı münaqişənin həllinə imkan verməməsi ilə bağlı düşüncələr də az deyil.



## Elxan Şahinoğlu: “Rusiyanın başında başqa prezident olsa və onun nüfuzu Putininkindən az olsa...”



## Əhəd Məmmədli: “Putinin yerinə Kremlə daha yumşaq, demokrat lider gəlsə...”

Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Ərdoğanın haqlı olduğunu düşünür: “Münaqişənin həlli Rusiya prezidenti Vladimir Putinin əlindədir. Bunun iki səbəbi var. Birinci səbəb odur ki, Ermənistan tamamən Rusiyadan asılıdır və işğalçı dövlət Kreml sahibinin əmr və tapşırıqlarını yerinə yetirmək məcburiyyətindədir. İkinci səbəb, Putinin Rusiyada reytinqinin yüksək olmasıdır. O Ermənistanı Azərbaycanla sülhə məcbur etsə, Rusiyada əksəriyyət buna mane ola bilməyəcək. Ancaq bu deyilənlər yalnız Putinə aiddir. Rusiyanın başında bir başqa prezident olarsa və onun nüfuzu Putinin nüfuzundan az olarsa həmin şəxsin Dağlıq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməsi problematik olar. Misal üçün, Putinin indiki prezidentlik müddətindən əvvəl onun dostu indiki baş nazir Dmitri Medvedyev Kremin sahibi idi. O, Putindən daha çox Qarabağ münaqişəsinin həlli ilə məşğul oldu. Medvedyev 3 il ərzində 10 dəfə Azərbaycan və Ermənistan prezidentlərini görüşdürdü. Medvedyev bəlkə də münaqişənin ədalətli həllini təmin etmək istəyirdi. Ancaq iki səbəbdən bu alınmadı. Birinci səbəb o idi ki, münaqişənin həllində Azərbaycanla Ermənistan arasındakı fərq ortadan qaldırılmadı. İkinci səbəb Medvedyevin prezidentliyinin Rusiyada bütün siyasi və güc strukturları tərəfindən birmənalı qarşılanmaması idi. Çünki çoxlarına bəlli idi ki, Medvedyev o dövrün baş naziri Vladimir Putinlə hesablaşmaq məcburiyyətindədir. Putin isə o dövrdə tez-tez Ermənistanın keçmiş prezidenti Robert Köçəryanla görüşürdü. Köçəryan isə Azərbaycanla istənilən razılaşmanın əleyhinə idi. Rusiyada güc strukturları prezidentə tabe olsa da, xarici və təhlükəsizlik siyasətində proseslərə müəyyən qədər nəzarət edirlər. Bu qüvvələr üçün Ermənistan əbədi müttəfiqdir. Ermənistan hakimiyyəti onlara da arxayındır”.

Politoloq Rusiyanın mövqeyini dəyişmək üçün əlimizdə olan imkanlardan da söz açdı: “Rusiyadan münaqişənin həllində müsbət heç nə gözləməsək də, daima gözləmə mövqeyində dayanmamamız da doğru olmaz. Rusiyanın siyasi dairələri və cəmiyyəti ilə işləmək lazımdır, bu dövlətin ictimai rəyinin dəyişməsinə çalışmaq lazımdır. Məsələn, son zamanlar rusiyalı ekspertlər arasında "Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmalıdır" deyənlərin sayı nisbətən artıb. Bu yaxşı haldır. Doğrudur bu çağırışlar Kremlin mövqeyinin dəyişməsinə səbəb olmur, ancaq hər halda bu səslənir və müzakirə olunur. Üstəgəl, rəsmi Bakı tez-tez Moskva və Sankt-Peterburqda müxtəlif konfrans və seminarlar düzənləyir və bu tədbirlərdə iki ölkə arasındakı münasibətlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsindən danışılır. Bu təşəbbüsləri də müsbət qiymətləndirirəm. Əlbəttə Rusiyada oturuşmuş sistemi və Putinin münaqişənin həllinə baxışını dəyişmək çətindir. Ancaq bu bizə əsas vermir ki, “Rusiya daima Ermənistana dəstək verəcək”, “Putin heç zaman işğal altındakı torpaqların boşaldılmasını təmin etməyəcək” deyib oturaq yerimizdə. Bu siyasət bizi daha da tənbəlləşdirə bilər. İşləmək lazımdır. Hətta erməni cəmiyyəti ilə işləmək, onların dünyagörüşünün dəyişilməsi istiqamətində təşəbbüsləri artırmaq lazımdır. Biz Rusiya və Ermənistan cəmiyyətinə elə mesajlar göndərməliyik ki, işğalın davamının onlar da xeyirli olmadığını və müharibə riskinin böyük olduğunu anlasınlar. Putin və Rusiyanın xarici işlər naziri Sergey Lavrov da bu mesajları almalıdır. Yoxsa Lavrov Bakıdakı mətbuat konfransında faktiki deyir ki, BMT qətnamələri münaqişənin həlli üçün əsas olmaya da bilər, xarici işlər nazirimiz Elmar Məmmədyarov bu fikrə reaksiya vermir. Belə olmamalıdır. Rusiya və Ermənistanın hakimiyyət nümayəndələri daima Bakının qəti mesajları ilə üzləşməlidir".

“Sivilizasiyalar və konfliktlər” Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli tam fərqli mövqedədir. O hesab edir ki, münaqişənin həllində əsas açar dövlət Azərbaycandır: “Əsas açar Azərbaycan hakimiyyəti və xalqının milli iradəsidir. Əgər dövlətlə xalq Qarabağı azad etmək məsələsində bütövləşsə, onda biz bu problemi çox qısa müddətdə həll edə bilərik. Bu olmayana qədər Rusiya bizi şantaj edəcək. Azərbaycanın təhlükəsizliyinin qorunması üçün Türkiyənin hərbi bazalarının yaranması gərəkdir. Əks halda, Lavrov kimilər hələ çox bizə ağalıq etmək arzusunda olacaq. Əgər sabah Putinin yerinə Kremlə daha yumşaq, demokrat lider gəlsə, bəlkə o zaman Qaradağ düyününü açmaq bizim üçün daha asan olar. Rusiyadan qorxmamalıyıq, nə vaxta qədər ki, Rusiyadan qorxacayıq, o vaxta qədər də yarı-erməni olan Lavrov kimilər Bakıda bizə hədə qorxu gəlməyə davam edəcək. Rusiyadan qorxmamızın yolları isə milli iradə göstərib dövlətlə xalqın bütövləşməsi, Türkiyə hərbi bazalarının Azərbaycanda yerləşməsidir. Bunların baş verməsi üçün də Azərbaycan hakimiyyəti iradə göstərməlidir”.

❑ Cavanşir ABBASLI

**Paytaxtdakı market və mağazalarda ərzaq və digər gündəlik tələbat məhsullarının qiymətlərində bahalaşma davam edir. Lakin yağın bahalaşması ilə bağlı yaşanan ictimai narazılıqdan sonra qiymət artımları daha səssiz şəkildə həyata keçirilir və demək olar ki, hər gün 1-3 qəpik artım olur. Artıq yağın, digər süd məhsullarının, yumurtanın, təmizlik vasitələrinin, digər konservləşdirilmiş ərzaq məhsullarının qiymətində bahalaşma özünü göstərir.**

# Bahalaşma Yeni ilə bir ay qalmış başladı

## Ərzaq bazarında son durum: "Elə gizli-gizli, qəpik-qəpik qaldırırlar ki, insan ilk baxışdan fərqində olmur"

"Yeni Müsavat"ın müxbiri qiymətlərlə bağlı durumu öyrənmək üçün marketlərə baş çəkib.

İlk növbədə onu qeyd edək ki, kərə yağının qiymətində gözlənilən ucuzlaşma hələ də reallaşmayıb. Hökumət tərəfindən gömrük rüsumunun 3 dəfə azaldılması ilə bağlı qərar hələ qüvvəyə minmədiyindən qiymətlərdə ciddi bir dəyişiklik müşahidə olunmur. Əksinə, ayrı-ayrı marketlərdə bir neçə faiz bahalaşma nəzərə çarpır. Bununla yanaşı, bazarlara Ukrayna istehsalı olan yağlar ayaq açıb. Kiloqramı 11-12 manata satılan bu yağlar artıq alıcılar arasında populyarlıq qazanıb. Bahalı Zellandiya və Almaniya istehsalı olan kərə yağlarını ala bilməyən vətəndaşlar tələbatlarını nisbətən ucuz olan Ukrayna istehsalı kərə yağları ilə ödəməyə çalışırlar.

Digər bahalaşan məhsul yumurtadır. Hazırda fabrik yumurtasının 1 ədədi 15 qəpik, kənd yumurtası adı ilə satılan məhsulun 1 ədədi isə 24 qəpikdir. Alıcılar bu durumdan narahatdırlar. Satıcılar isə dekabr ayında daha ciddi bahalaşmanın gözlənildiyini bildirdilər. Məlum olduğu kimi hər il Yeni il ərəfəsində əhalinin artan tələbatını nəzərə alan iş adamları qiymətləri "ceyran belinə" qaldırırlar.

Alıcı Mehparə Məmmədova deyir ki, iki gün öncə aldığı məhsulların əksəriyyəti bu gün bir neçə qəpik baha təklif olunur: "Elə gizli-gizli, qəpik-qəpik qaldırırlar ki, insan ilk baxışdan fərqində olmur. Ancaq ümumi bazarlıq edəndə kassada fərqi hiss edirsən. Əvvəl 50-60 manatla bir həftəlik market bazarlığı edirdik. İndi 100 manatlıq bazarlıq bir həftəyə yetmir. Qiymət fərqi burada özünü göstərir".

Marketdə ən çox qiymət artımı xaricdən idxal olunan şirniyyatların qiymətində özünü göstərir. Bunun önəmli səbəblərindən biri də xaricdə kərə yağının qiymətinin qalxması ilə əlaqədar şirniyyat məhsullarının da bahalaşmasıdır. Qiymət artımı əhalinin ən çox tələbatı olan gündəlik məhsullarda hiss olunur. Tələbatın az olduğu məhsullarda artım yoxdur. Xüsusən xaricdən idxal olunan zeytun yağında, günəbaxan və qarğıdalı yağında 5-10 qəpik arası artım var. Siqaretin qiyməti isə market və mağazalarda fərqlidir, bəzi mağazalar arasında 10-20 qəpik fərq var.

Qiymətlərlə bağlı durumu dəyərləndirən iqtisadçı ekspert Pərviz Heydərov bildirdi ki, inflyasiyanın bu qədər yüksəlməsinin əsas səbəbi ərzaq məhsullarının bahalaşmasıdır: "Son dövrdə gündəlik tələbat məhsullarındakı bahalaşma prosesini təhlil etdikdə görərik ki, burada hər hansı bayramın,



hər hansı hadisənin heç də əhəmiyyətli rol oynamadığını görə bilərik. Bu proses son vaxtlar ardıcıl olaraq davam edir. Bunun nəticəsi olaraq, hazırda ölkədə inflyasiya 14 faiz təşkil edir. Bu kifayət qədər yüksək rəqəmdir. Biz bahalaşmanı təhlil etsək görərik ki, ən çox bahalaşan və inflyasiyanı 14 faizə çatdıran ərzaq məhsullarıdır. Ərzaq daha çox bahalaşır. Əvvəllər buna mövsümi amillər və digər subyektiv amillər təsir edirdi. Ancaq indi bu proses ardıcıl olaraq davam edir. Son dövrdə yağın bahalaşması özü də bu prosesin tərkib hissə idi. Sonradan gömrük rüsumunu aşağı saldılar. Bu ilin əvvəlində yağın gömrük rüsumu qaldırılmışdı və bu səhv siyasət idi, bahalaşmada əsas rol oynadı. Düzdür kərə yağının qiyməti dünya bazarında da bahalaşdı və Azərbaycanda da özünü göstərdi. Azərbaycanda inflyasiyanın artmasında və qiymətlərin bahalaşmasında ən çox rol oynayan idxal inflyasiyasıdır, yəni idxal mallarının baha olmasıdır. İdxal mallarının baha olmasında gömrüyü və monopoliyanın da rolu var".

İqtisadçı onu da diqqətə çatdırdı ki, ərzaq məhsulları sahəsində bütün dünyada bahalaşma gedir: "Bu faktorun özü Azərbaycanın daxili bazarına ciddi şəkildə təsir edir. Gömrük rüsumlarının yüksək olması, monopoliyanın olması kimi subyektiv amillər də üstünə gələndə, həmin idxal inflyasiyası öz təsir gücünü birə-beş artırır".

Yeni il öncəsi bahalaşmanın olacağı ilə bağlı proqnozlara gəlincə, iqtisadçı Pərviz Heydərov bildirdi ki, ciddi bahalaşma gözlənilmir: "Çünki manatın dəyəri sabitləşib, ölkənin tədiyyə balansının müsbət istiqamətdə dəyişməsi ilə əlaqədar, neftin qiymətinin əlverişli həddə olması ilə əlaqədar manatın məzənnəsi müəyyən qədər stabilləşib. Manat hətta dollar qarşısında 1.70-dən də aşağı meyllənmək istəyir, ancaq Mərkəzi Bank buna imkan vermir. Odur ki, manatın sabitləşməsi ilə bağlı ölkədə ərzaq məhsullarının və gündəlik istehlak mallarının qiymətinin bahalaşması üçün heç bir zəmin yoxdur. İkincisi, inflyasiyanın 14 faiz təşkil etməsində, ərzaq məhsullarının bahalaşmasında ötən ilin sonunda qazın, elektrik enerjisinin tariflərinə edilən dəyişikliklərin, o cümlədən bu ilin yayında Aİ 93 markalı benzinin qiymətinin artırılmasının da rolu var. Bu da qiymətlərdə özünü göstərdi. Yaxın gələcəkdə, kommunal xidmətlərin yox, ancaq bəzi yanacaq növlərinin qiymətinin artması gözlənilir. Əgər bu baş versə, bazarda kifayət qədər bahalaşma müşahidə edə bilərik. Ancaq Yeni ilin gəlişi ilə bağlı müəyyən məhsulların qiymətin artım olacağı istisna deyil. Bütövlükdə isə ilin sonuna kimi inflyasiyanın 14 faizdən də yüksəyə qalxacağı gözlənilmir".

❑ **Nərgiz LİFTİYEVA**
**Foto müəllifindir**

# Keçmiş ANS-çilər müxtəlif kanallarda, ümidlə gözləyirlər



## Vahid Mustafayev: "İndiyədək xalqımıza, dövlətimizə necə xidmət etmişiksə, eyni qaydada davam edəcəyik"

**Noyabrın 26-sı fəaliyyəti dayandırılmış ANS kanalının "Xəbərçi" proqramının ilk dəfə efirə çıxdığı gündür. Kanalın keçmiş əməkdaşlarının əksəriyyəti müxtəlif media quruluşlarında işləsələr də, bu gün münasibətilə sosial şəbəkələrdə bir-birlərini təbrik ediblər.**

Yada salaq ki, ANS-in bağlanmasından artıq 1 il 4 aydan çox vaxt keçir. Kanalın qapadılmasından sonra ötən bu müddət ərzində keçirilən məhkəmə prosesləri nəticə verməyib və telekanal rəhbərliyinin iddiaları təmin edilməyib. Şirkətin yerləşdiyi ünvanın qapısı hüquq-mühafizə orqanları tərəfindən möhürlənib və möhürün nə vaxt götürüləcəyi bəlli deyil.

Ötən aylar ərzində ANS-in əməkdaşlarının bir qismi digər kanallarda işə düzəliblər. Lakin bildirilir ki, kanalın fəaliyyəti bərpa olunarsa, onlar yenidən öz şirkətlərinə geri dönəcəklər. Məsələn, ANS telekanalının keçmiş aparıcısı Rita Ömərova fəaliyyətini PR şirkətində davam etdirir.

"İç xəbər" verilişinin layihə rəhbəri olmuş Zənurə Talıbova İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində fəaliyyət göstərir. O, burada PR menecer kimi fəaliyyət göstərir.

ANS-in keçmiş aparıcıları Rəşad Abbasov İnteraz TV-də, Əfsanə Mehdiyeva, Natavan Babayeva AZTV-də, Röya Bənənyarlı isə İTV-də çalışır. Aparıcı Vəfa Şəhlayi peyklə yayımlanan CBC telekanalında işləməyə başlayıb. Xatırladaq ki, o, ANS-də "Hesab vaxtı" verilişinin aparıcısı və növbə rəhbəri olub. ANS TV-nin "Şəbəkə" verilişinin aparıcısı Rahil Sayadoğlu xeyli vaxtdır ARB TV-də çalışır. ANS-çilərindən Sevda Həsənova, Turab Səftərov, Eldəniz Elgün və digərləri ANS-in açılmasını gözləməklə yanaşı, İstipress.com saytında fəaliyyət göstərirlər. Əməkdaşlar Qənirə Ataşova və Tünzalə Rafiqqızı isə emiqrasiya ediblər.

ANS kanalının prezidenti, rejissor Vahid Mustafayev hazırda BALANS Milli Animasiya Studiyasında uşaqlar üçün animasiyalar, cizgi filmləri çəkməklə məşğuldur.



Vahid Mustafayev

"Yeni Müsavat"a açıqlamasında V. Mustafayev bildirdi ki, ANS iş yeri yox, həyat tərzi olub: "26 il ərzində necə işləyib, insanlarımızı maarifləndirib, məlumatlandırmışıqsa, bundan sonra da öz layihələrimizlə bu missiyamızı davam etdirəcəyik və etdiririk. Yeni proyektlər üzərində çalışırıq. Xalqımız üçün bundan öncə necə çalışmışıqsa, bundan sonra da belə davam edəcəyik. Üzərində çalışdığımız animasiyalarda uşaqları maarifləndirmək üçün hər bir şey nəzərdə tutulub. Uşaqların məntiqi, zehni baxımından inkişafından tutmuş, davranış qaydalarına qədər hər şey nəzərə alınıb. Bundan əlavə iri proyektlər üzərində də çalışırıq. ANS barəsində isə onu söyləyim ki, ANS Azərbaycanın milli sərvətidir. ANS xəbər çatdırma operativliyi baxımından ölkədə birinci idi. Qeyd etdiyim kimi, indiyə qədər xalqımıza, dövlətimizə necə xidmət etmişiksə, bundan sonra da eyni qaydada davam edəcəyik".

"Yeni Müsavat"a danışan ANS-ÇM Yayım və Media Şirkətinin baş direktoru olmuş Sevda Həsənova isə bildirdi ki, ANS fəaliyyətinin bərpası və digər bu kimi məsələlərlə bağlı heç bir irəliləyiş yoxdur: "Mən də BALANS Milli Animasiya Studiyamızda çalışıram. Artıq təxminən uşaqların maarifləndirilməsi ilə bağlı 30 seriyaya yaxın animasiyamız hazırdır. Bildiyiniz kimi, bu sahə Azərbaycanda yox səviyyəsindədir və biz çalışırıq ki, animasiya sahəsini inkişaf etdirək. Animasiya sahəsi elədir ki, burada çalışanlar gərək şirkətin zövqünü də bilsin. Ona görə də əsas işçi qüvvəmiz köhnə ANS-çilərdir. Təbii ki, yeni əməkdaşlar da götürüb, yetişdiririk və bu sahə, eləcə də kino sahəsi ilə bağlı təhsil almaları üçün xaricə göndəririk. Hələ ki xəbərlə bağlı kurslarımızı dayandırmışıq, ancaq nəzərdə tuturuq ki, gələcəkdə bu işə də başlayaq. ANS kanalının bərpası məsələsi ilə bağlı isə yenilik yoxdur. Hazırda kanalların çoxunda əsas işçi qüvvəsi keçmiş ANS-çilərdir. Lakin kanalımız bərpa olunursa, geri qayıtmağa hazırdırlar. ANS hər birimiz üçün həyat tərzi olub. Bizim sosial şəbəkələrdə səhifələrimiz var ki, orada da sadə vətəndaşlar xeyli sayda rəylər yazır, ANS-in nə zaman bərpa olunacağını soruşurlar. Ümid edirik ki, ANS-in fəaliyyəti bərpa olunacaq. Hələ ümidimiz ölməyib".

Xatırladaq ki, MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən dayandırılması barədə qərar qəbul edib.

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017



# Poeziyada "Elza stili", musiqidə "Vüsal yolu"

Samir SARI

**Elə bilirdim, bu söhbət bitdi, getdi, necə deyərlər, film idi, baxdıq, küləkdi, əsdi keçdi, şimşəkdi, çaxdı, söndü. Yox, qardaşlar və bacılar, "ayə haryaeydirsən, ayə" söhbəti davam edir. Ən pisi, bir gecədə heç nədən şöhrət qazanan gənc yeni-yeni "şedevr"lərini paylaşır.**

Əgər qələminə, şəxsiyyətinə hörmət etdiyim, yüksək estetik zövqünə inandığım dostlar bu faktı görməzliyə vursaydılar, heç bir fikir bildirməsəydilər, mən bu mövzuya bir də qayıtmazdım. Amma tam əksini müşahidə edirəm. Adamlar ciddi-ciddi bu mənasız bağırtı-çığırtıda nəsə fəlsəfi dərinlik, lrik-romantik çalarlar axtarırlar, ifadə şamanizm estetikası tapırlar, andeqraund təmayülü, protest ruhu görürlər.

Nə bilim. Adamı qızışdırıb pis yola salacaqlar, poeziyada bir Elza stili yaranmışdı, indi musiqidə də Vüsal yolu olacaq. Ondan sonra hamı dincələcək.

Mən özüm kənd uşağıyam, gözümü açıb at kişnərtisi, eşşək anqırtısı, it hürüşməsi, xoruz banlaması, qoyun-quzu mələşməsi, dana böyürtüsü, çaqqal vaqqıltısı, canavar ulartısı, pişik miyoltusu, canım sizə desin, bülbül cəh-cəhi, qarğa qarıltsı, torağay nəğməsi, şanapipik taqqıltısı, cırcırama cızıltısı, qurbağa qurultusu, arı vızıltısı eşitmişəm. Bir sözlə, bizi əhatə edən heyvanların çıxardığı cürbəcür səslərin harmoniyasında böyümüşəm. Sizə deyim ki, vərdiş eləyəndən sonra o səslərdən zövq almaq olur, hesab edirsən ki, təbiətin orkestrinə qulaq asırsan, sadəcə bu orkestrin dirijoru yoxdur deyə, hər heyvan öz notunu səsləndirir.

Ancaq dərindən inanıram ki, bu orkestrdə insanın öz səsi var və bu səs təbiətdəki bütün səslərdən gözəldir. Bir də ona əminəm ki, insan heyvan səsi çıxarmamalıdır. Bir insan öküz kimi böyürürsə, adı üstündə, bu öküz böyürtüsüdür.

Ona görə də, məsələn, eşşək anqırtısını heç vaxt sənət əsəri kimi qəbul etmək olmaz. Söz yox, hər bir eşşəyin anqırmaq kimi eksklüziv hüquqları var və onlar bu hüquqdan yararlanmaqda sərbəstdirlər. Amma eşşək gəlib ağzını evin pəncərəsinə dayayıb otağın içinə anqırsa, evin kiçik oğlu çıxıb onun yanbızına iki (biri bəs eləmir) şallaq çəkib həyətin o başına qovacaq. At da gərək adamın qulağının dibində kişnəməsin, bir az uzaqda olsa yaxşıdır.

Mənim xüsusi estetik zövqü olan (mən onları artıq "alternativ zövqlü insanlar" adlandırıram, çünki daima rəiyyətdən fərqlənmək istəyirlər) dostlarım gərək nəyəsə barmaq uzadıb "unikaldır, orijinaldır, şedevrdir, sıradışıdır, yenilikdir" və sair və ilaxır bu kimi epitetlər səsləndirəndə baxsınlar ki, bu doğrudan da heç kəsin edə bilməyəcəyi qabiliyyətdirmi, nadir istedad əsəridirmi?

Baxın, 50 ildir bu ölkədə heç kəs Habil Əliyev kimi gözəl kaman, Kamil Cəlilov kimi qoboy çala bilmir. Demək ki, onlar nadir istedaddır. Amma üç gündür yüzlərlə gənc hərəyə bir gitara (bəziləri hətta döşəməsilən taxta, süpürgə) götürüb videokamera qarşısında oxuyurlar: "Ayə, haryaeydirsən, ayə".

Çünki bunu etmək çox asandır. Mənalı söz yox, unikal melodiya yox, sadəcə, utanmırsan və insan oğlunun hər birinin çıxara biləcəyi səslə oxuyursan.

Bu yolla şöhrət qazanmağa gəlincə, gəncin bu hərəkətini bilə-bilə, piar üçün etdiyini deyənlər var. Qorxuram ki, elə deyil, o, elə bu cür də davam edəcək, gitarasını götürəcək, ibtidai insanların dəstiri səs çıxara-çıxara, 4-5 sözdən ibarət "əsər"lərini ifa edə-edə gedəcək.

Bu cür asan və ucuz şöhrət qazanmaq qızdırma-titrəməsi isə başqa sahələrə də sirayət edəcək. Necə ki, poeziyada Elza, musiqidə Vüsal kimi "istedadlı məşhurlar" var, sabah da kimsə şalvarını aşağı çəkib qıllı dalının videosunu sosial şəbəkədə yaymaqla məşhurlaşacaq, bizim dostlar da onun bu hərəkətində qədim skiflərin yaşantılarının inikasını görəcəklər.

Absurda gedir bu işlər, dostlar. Məndən deməkdir.

Baxın, bizim əməkdaş da "Ayə, haryaeydirsən, ayə"yə parodiya edib: "Ağız, bizə niyəəlmirsən, ağız, a yığvalın qarəəlsin". İstəyirsiniz, mən də onun "şedevri"nin fəlsəfəsini xırdalayım. Gənc müəllif demək istəyir ki, gəlsəydin, xoşbəxtçilik olardı, amma gəlmirsən, ona görə də iqbalın (qismətin) qara gəlir. Burda şaman harayı, Adəm-Həvva eşqi, nə bilim, qədim aşiqlərin qovuşmazlıq iztirabı var.

Necədir, yaxşıdır? Yeri gəlmişkən, 4-5 il əvvəl belə bir şedevr də vardı: "Kotlet-püre, necədir, yaxşıdır? Saçı da kare, necədir, yaxşıdır?"

**Bu ilin mayında ləğv edilən Ümumrusiya Azərbaycanlıları Konqresinin (ÜAK) yerinə Azərbaycanın yeni diaspor təşkilatının yaradılacağı barədə yayılan xəbərlər hər iki ölkədə gündəm olub. Artıq şimal qonşumuzdakı Azərbaycan icmalarının rəhbərləri yeni təşkilatın yaradılması və ona liderlik etməsi üçün akademik Fazil Qurbanova müraciət ediblər.**



# Rusiya ermənilərinin azərbaycanlılardan fəal olmasının 2 səbəbi - ÜAK-dan güclüsü qurulacaqmı...

## Fəzail Ağamalı durumdan çıxış yolu barədə danışdı; "İndi güclü bir qurumumuzun yaradılması son dərəcə vacibdir"

Müraciətdə ÜAK-ın ləğvindən sonra böyük bir boşluq yarandığı və bu boşluğun yerini doldurmaq üçün yeni bir qurumun yaradılmasına ehtiyacın olduğu vurğulanıb. Eyni zamanda yeni quruma kifayət qədər nüfuzu olan F.Qurbanovun rəhbərlik etməsindən söz açılıb. Akademik bu yöndə Azərbaycan mətbuatına verdiyi açıqlamalarda gələn ilin fevralında qurultay keçirəcəklərini bildirib.

Yeni yaradılacaq qurumun ÜAK-a layiqli alternativ olub-olmayacağı ilə bağlı fikirlər müxtəlifdir. Son illərdə fəaliyyəti ciddi şəkildə zəifləyən bir qurumun əvəzinə yaradılacaq qurumun Azərbaycan lobbisinin Rusiyada kifayət qədər güclənməsinə səbəb olacağına ümidlər yüksəkdir. İndiyə qədər bizdən bir addım öndə olan erməni lobbisinin bu ölkədə zəifləndirilməsi, ən əsası onlardan bir addım önə keçmək üçün şanslarımızın heç də az olmadığı vurğulanır. Kremlin azərbaycanlılara, oradakı təşkilatlarımıza yanaşmasının dəyişilməsi istiqamətində bundan sonra fəaliyyətimizin artırılması da qeyd olunur.

Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı öncəliklə Rusiyada ÜAK-ın ləğvinin hələ də onda suallar doğurduğunu söylədi: "Bu qurum Azərbaycan-Rusiya münasibətlərinin inkişafına öz töhfəsini verirdi. Təkcə azərbaycanlıları öz ətrafında birləşdirməklə kifayətlənmirdi. Azərbaycanın mədəniyyətini, taleyüklü məsələlərini Rusiyada təbliğ etməklə işini başa vurmuş hesab etmirdi. Bütövlükdə həm də iki ölkə, xalq arasında körpü rolunu oynayırdı. Nə üçün ləğv olunduğu, Rusiya hakim dairələrinin bu məsələdəki mövqeləri mənim üçün sual olaraq qalır. Açığı, araşdıra bilmədim ki, bu təkcə azərbaycanlılara qarşı belədir, yoxsa Rusiyada yaşayan digər xalqların da təşkilatlarına qarşı bu cür münasibət sərgilənir. Bütün bunları sona qədər araşdıra bilmədim. Əgər yanaşma Rusiya tərəfindən qeyri-rus xalqlarının hər birinə eyni idisə, bu haradasa başa düşmək olardı. Ola bilərdi ki, rus hakim dairələrinin belə məsələlərdə yanaşmaları mövcuddur. Amma yalnız azərbaycanlılara qarşı bu münasibət sərgiləndisə, təbii ki, bu heç də yaxşı hal deyil. Bildiyimiz qədəri ilə Rusiyada müəyyən qurumlar var idi ki, Azərbaycanı müdafiə edirdi, bunlardan biri də Sankt-Peterburqda fəaliyyət göstərir".



Deputat yeni qurumun yaradılması ilə bağlı təşəbbüslərin ortaya atılmasının təqdirəlayiq olduğunu da qeyd etdi: "Düşünürəm ki, bu təşəbbüsü reallaşdıra bilsələr, bizim xeyrimizə olacaq. Çünki orada çoxminli azərbaycanlı icması yaşayır. Təkcə milli dövlət maraqlarımızın, işğal edilmiş torpaqlarımızın məsələsini Rusiya kimi dövlətdə qaldırmaq kifayət deyil. Yeni qurumun yaradılması ilə oradakı azərbaycanlıların hüquqları müdafiə olunar, onların problemləri rəsmi qurumlar qarşısında qaldırıla və həllini tapa bilər. Azərbaycan icmalarının fəaliyyətini tənzimləyən, onların hüquqlarını qoruyan, Azərbaycan-Rusiya münasibətlərinin inkişafında yeni yaradılacaq qurumun müsbət töhfələri ola bilər. O da etiraf olunmalıdır ki, Rusiyada erməni icması, diasporu güclüdür. Orada elə bir rəsmi dövlət qurumu, mətbuat orqanı yoxdur ki, ermənilər kök salmasın. Bu ölkədə ermənilər kifayət qədər fəaldır. Ermənistanın işğalçılıq siyasəti həmin icmalar, diaspora tərəfindən ən yüksək səviyyədə müdafiə olunmaqdadır. Bunun qarşısında dura biləcək güclü bir qurumumuzun yaradılması son dərəcə vacibdir. Ermənilərin Rusiyada bizdən fəal olmalarının iki mühüm səbəbi var. Birincisi, Rusiyanın ermənilər və azərbaycanlılara münasibəti eyni deyil. Rusiya rəsmi dairələri hər zaman ermənilərə geniş imkanlar yaradıblar. Bu indi belə deyil, keçmişdən bu ənənə formalaşıb və bu gün də davam edir. Bunlar etiraf olunmalıdır. Burada xristian təəssübkeşliyi də, ənənə də, ermənilərin etnos olaraq müəyyən keyfiyyətləri də var. İkinci mühüm səbəb kimi, ermənilərin təşkilatlanmaqda üstün imkanlarını da etiraf etmək lazımdır. Bəzən deyirlər ki, ermənilər xalqdan, etnosdan daha çox təşkilatdır. Ermənilərin təkcə Rusiyada deyil, dünyanın istənilən yerində icmaları varsa, orada mütləq təşkilatlanma var. Bu ermənilərin etiraf etmək lazımdır ki, bizdən üstün keyfiyyətləridir. Biz təşkilatlanmağa diqqət yetirmirik, həvəs göstərmirik. Ermənilərin torpaqlarımızın işğal etmələrində dünya ermənləri mühüm rol oynadılar, həm siyasi, həm ideoloji, həm də maliyyə cəhətdən. Hətta deyərdim ki, ermənilər kənardan gətirdikləri muzdlular hesabına torpaqlarımızı işğal etdilər. Buna qədər ermənilər özlərini ifadə etdilər. Çox təəssüf ki, biz də onların diqqəti cəlb edən bu cəhətləri zəifdir. Rəhmətlik ulu öndər xaricə gedərkən azərbaycanlıları yığır, toplantı keçirir, onları birləşməyə, bir-birilərini müdafiə etməyə, eyni zamanda, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün yaşadıqları ölkənin siyasi həyatında fəal olmağa çağırırdı. Bu gün də ölkə prezidentinin xarici siyasətinin əsaslarından birini bu təşkil edir. Xaricdə yaşayan azərbaycanlılarla bağlı xüsusi komitə yaradıldı. Bu komitənin qarşısına çox mühüm məqsədlər qoyuldu ki, diaspora təşkilatlarının yaradılmasında ciddi rol oynasın. Gərək millət olaraq, buna həvəsimiz olsun. Son vaxtlar xaricdə təhsil olan tələbələrimizin təşəbbüsü ilə təşkilatlar yarandı. Biz indi bu keyfiyyətləri özümüzdə ifadə etməkdəyik. Çalışmalıyıq ki, ermənilərin təşkilatlanmaq kimi üstün cəhətlərinə nəinki çataq, hətta onu üstələyək. Bunun üçün millət olaraq səylərimizi artırmalıyıq".

❑ Cavanşir ABBASLI

# “Əvvəl mərsiyə, ardınca meyxana, indi də ”hara gedirsən, ayə...”

## Fazil Mustafa: “Qida, uşaq geyimi, pampers, dərmanlar od qiymətinə, aztəminatlı ailələrin sağlam uşaq böyütməsi ciddi risk altındadır”

**“Baxış bucağı”**

**Milli Məclisdə 2018-ci ilin dövlət büdcəsi ilə bağlı müzakirələrdə xeyli problemlərə toxunuldu, hökumətə təkliflər verildi. Hökumət nümayəndələrinin çıxışlarından hələlik deputatların təşəbbüslərinə necə reaksiya veriləcəyi bəlli olmadığı üçün bu mövzuda deputat, BQP başqanı Fazil Mustafa ilə danışdıq. Həmçinin söhbət əsnasında digər məsələlərə də toxunduq.**

*- Fazil bəy, büdcə müzakirələri bitdi və hökumət fikirləşməyə getdi. Sizcə, 1 dekabrda deputatların qarşısına hansı sənədlə gələcəklər, büdcə zərfində ciddi dəyişikliklər olacaqmı?*

- Büdcə müzakirələrinin bu il əvvəlkilərdən daha səmərəli keçdiyini düşünürəm. Çıxışlara 10 dəqiqəlik vaxt imkanına əsasən əməl olunduğuna görə bir sıra vacib fikirləri səsləndirmək mümkün oldu. Bundan öncə komitə iclasında da təkliflərimizi səsləndirmişdik və demək olar ki, üst-üstə yarım saat çıxış etmək imkanı olduğundan irad və təkliflərimizi həm hökumətin, həm də cəmiyyətin diqqətinə çatdıra bildik. 1 dekabrda müəyyən düzəlişlərlə bağlı hökumətin mövqeyi səslənəcək, çox güman ki, artıq müzakirəsiz layihələr səsə qoyulacaq. Ümid edək ki, səsləndirdiyimiz aktual məsələlərə diqqətli yanaşmanın şahidi olacağıq.

*- İclasdakı çıxışınızda dediniz ki, 45 manat doğulan uşağa görə, 100 manat isə hər doğulan buzova görə vəsait ayrılır. Bəziləri gülüşlə qarşılasa da, çox ciddi və həssas mövzuya toxundunuz. Bu çıxışa hökumətdən reaksiya oldumu, yaxud dediklərinizin nəzərə alınacağını gözləyirsinizmi?*

- Bu məsələni bir neçə il öncə də qaldırmışdım. Əlbəttə, mən süni mayalanma yolu ilə dünyaya gələn buzov üçün vəsait ödənməsinin əleyhinə deyiləm, ancaq bu cür simvolik müqayisə ilə doğulan uşaqların həm qida, həm geyim, həm də müalicə-müayinə xərclərinin acınacaqlı vəziyyətdə olduğuna diqqət yönəltməyə çalışdıq. Qida, uşaq geyimi, pampers, dərmanlar od qiymətinə, aztəminatlı ailələrin sağlam uşaq böyütməsi ciddi risk altındadır. Bu mövzu hamımızı düşündürməlidir. Deputat həmkarım Qüdrət bəy bizim uşaqların boyunun azaldığını faktlarla ortaya qoydu. Bunun əsas səbəbi ilk növbədə maddi sıxıntılarla bağlıdır. Türkiyədə son illərdə orta məktəblərdə hər uşağa süd paylaşımı kampaniyası həyata keçirdiklərinə görə əhəmiyyətli dərəcədə boy artımı baş verdiyi faktlarla təsdiqlənib. Müharibə aparan bir xalqın sağlam uşaqları həm də sağlam ana və sağlam əsgər perspektivi deməkdir. Bizsə bulağın gözünü buraxmışıq, gedib çaya töküldüyü yeri təmizləməklə məşğuluq. Bu çıxışa hansısa reaksiya verilmədi, dekabrın 1-də hər halda uşaqlara verilən müavinətdə artım olarsa, dinləyib görəcəyik.

*- Fazil bəy, təəccüblüsü və təəssüf doğuranı budur ki, sosial şəbəkələrdə ölkənin taleyini müəyyənləşdirən büdcə müzakirəsindən çox, “harya gedirsən, ayə” deyən gəncin ifası müzakirə olundu. Bu, nəyin göstəricisidir, insanların öz taleyinə biganəliyinin, yoxsa...*

- Bu, cəmiyyətdə bayağılığa meylin artması ilə bağlıdır. Əvvəl mərsiyə, ardınca meyxana, indi də “hara dedirsən, ayə...”. Təhsil səviyyəsi aşağı düşdükcə bayağılığa da buna tərs mütənasib olaraq artmağa başlayır. Sadəcə iddia olunurdu ki, bu proqram Az.TV-də yayımlanıb, bu da daha çox maraq cəlb etməyə başladı ki, bu cür ciddilikdən uzaq şounu kim rəsmi televiziya efirinə buraxıb. İndi bəziləri açıqlama verirlər ki, proqram Az.Tv-də getməyib, sadəcə, saytda yerləşdirilib. Ola bilər, ancaq bütün hallarda bu bir bayağılıqdır və indiki halda bu mahnıya diqqətin yönəlməsini təbii qarşılamaq lazımdır. Fikrimcə, bu gün dövlət büdcəsindən ayrılan kifayət qədər vəsaitin fonunda həm Az.TV-nin, həm də İTV-nin digər özəl televiziyalarla müqayisədə daha keyfiyyətli proqram siyasəti apardığını söyləmək ədalətsizlik olardı. “Hara gedirsən, ayə” sözləri bəlkə də rəmzi mənada bu telekanalları bərbad duruma salmış şəxslərə qarşı da yönəlmiş ola bilər.

*- Yeri gəlmişkən, siz belə ifalara necə baxırsınız? Olması normaldırmı?*

- Mən rok musiqisinə də, muğama da, saza da, xalq musiqisinə də, pop musiqisinə də dəyər verirəm. Ancaq anlayışım budur ki, təqdim olunan hər bir əsərin şeir və ya nəsr mətnində hansısa məna və ya ideya olmalıdır. Burada hansısa məna və ideyanı tuta bilmədim. Ola bilsin ki, musiqi bilgim azdır, ancaq dinləyici zövqüm illərin təcrübəsinə görə az-çox formalaşıb. Mən ifaçının istedadını müzakirə etmirəm, təbii ki, istedadlı insandır, ola bilsin ki, daha maraqlı ifaları var, konkret ifa ilə bağlı fikrimi bölüşürəm. Ancaq bazarda bu cür ifalara tələbat varsa, məhz bazarda bu cür ifaların olmasına normal yanaşıram.

*- Bu günlərdə əməkdaşlarımız Gədəbəydən reportaj hazırlamışdılar. Yəqin siz də tanışsınız, bildirildi ki, icra başçısı sahibkarın obyektinin qapısını daşla hördürüb, yoluna hasar çəkib. Ölkə rəhbərliyi sahibkarlığın inkişafına önəm verdiyini bəyan etdiyi halda, yerlərdəki “balaca padşah”ların bu sayaq davranışını nə ilə izah etmək olar?*

- Əlbəttə, bunlar yanlış addımlardır. Büdcə müzakirələrində mən də dilə gətirdim ki, bölgələrdə sahibkarlar olmadığına görə universitetlər də yoxdur, futbol komandaları da, basketbol, həndbol, voleybol komandaları da yoxdur. Bu vacib sahələri kim və hansı pulla maliyyələşdirəcək? Gərək hər bölgədə 50-60 imkanlı sahibkar olsun ki, bu sahələrə pul yatırsın və pul qazansın, bölgələrdə də mədəni həyat inkişaf etsin. Gəncədən başqa digər bölgə şəhərimizdə normal universitet yoxdur. Bunların bir səbəbi də məhz sahibkarlığın dirçəlməsinin qarşısına hörülən həm gerçək, həm də qeyri rəsmi hasarlara bağlıdır.



**“Prezidentin Avropa Birliyi rəsmiləri ilə son müzakirələri həqiqətən də Azərbaycanın müstəqil siyasət həyata keçirdiyinin bir nümunəsi idi”**

**“Öz namizədimizlə prezident seçkilərində iştirak etməmiz daha məqsədəuyğun olar”**

*- Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığı davam etdirmək əzmində olduğunu bəyan etsə də, qurumla hər hansı saziş imzalamadı. Bu məsələ ilə bağlı mövqeyiniz necədir, bunu ehtiyatlı siyasətin məntiqi nəticəsi saymaq olarmı?*

- Bir müşahidəmi qeyd edim ki, ölkə prezidentinin Avropa Birliyi rəsmiləri ilə son müzakirələri həqiqətən də Azərbaycanın müstəqil siyasət həyata keçirdiyinin bir nümunəsi idi. Gah söyləyirlər ki, Azərbaycan artıq Rusiyanın təsir dairəsindədir, gah deyirlər ki, Qərbin diktəsi ilə hərəkət edir, ancaq bu görüşlər və müzakirələr göstərir ki, ölkənin maraqlarının tələb etdiyi səviyyədə Azərbaycan həm Rusiya ilə, həm Qərblə, həm də İslam ölkələri ilə məsafəni müstəqil şəkildə müəyyənləşdirir. Müzakirələr kifayət qədər səmərəli oldu, yəqin ki, maraqlarımızı tam şəkildə təmin etməyən məqamlar olduğuna görə Şərq tərəfdaşlığı sazişinə hələlik imza atılmadı. Əsas nəticə budur ki, Azərbaycan Avropa ilə əməkdaşlığa hamıdan çox maraqlı olduğunu ortaya qoya bildi. Ehtiyat məsələsinə gəldikdə isə, bizim kimi dişiylə, dırnağıyla müstəqilliyini qorumağa məhkum olan ölkələr üçün hansısa məsələdə ehtiyatsızlığa yol vermək şansı nəzərdə tutulmur.

*- Fazil bəy, qayıdaq büdcə müzakirələrinə. Türkiyə nümunəsini çəkib dediniz ki, Bakı böyüdükcə Azərbaycan kiçilir. Kifayət qədər həyəcanlı çağırış idi. Nazirlərdən həyəcanlanan, “gəlin bu məsələ ilə bağlı birgə çalışaq, tədbir tökək” deyən oldumu?*

- Söylədiyim kimi, bəzi iradlarımıza hökumət təmsilçiləri tərəfindən ümumi xarakterli cavablar verildi, ancaq daha konkret rəqəmlərdə ifadə olunan cavabları dekabr ayının 1-də dəqiq görə biləcəyik. Fikrimcə, ölkə iqtisadiyyatının və əhali potensialının çox əhəmiyyətli hissəsinin Bakı şəhərinə cəmlənməsi yalnız inkişafımıza mənfi təsir göstərən amil deyil, həm də ölkənin təhlükəsizliyi üçün böyük risk göstəricisidir. Bölgələrdə həyatı, sosial durumu, iqtisadi inkişafı və insanların rifahını canlandırmaq üçün təcili real tədbirlər görülməlidir. Əgər regionlara illərdir qoyulan azman sərmayə mənfəət rəqəmlərində ifadə olunmursa və bölgələr hələ də dotasiyadan qurtula bilmirsə, demək ki, etiraf olunmayan yanlışlar var. Bakı şəhərinin ətrafı artıq infrastrukturu bərbad durumda olan minlərlə qanunsuz tikili-kəndlərdən ibarətdir. Bu insanlar bizim vətəndaşlardır, böyük əksəriyyəti bölgələrdəki işsizlikdən bezərək şəhərə axın ediblər, məmurlara qeyri-qanuni ödəmələr müqabilində evlər tikiblər, indi bu evləri ədalətli məbləğlərdə özəlləşdirməklə büdcəyə böyük vəsait qazandırmaq olar. Digər tərəfdən, şəhərdə məskunlaşmaqla normal yaşam standartları yarada bilməyən insanların öz doğulduğu bölgələrə dönüşünü stimullaşdırmaq olar ki, daha ixtisaslaşmış insanlar kimi kənd təsərrüfatının inkişafına töhfə verə bilsinlər. Bakı Böyük şəhər bələdiyyəsinin yaradılması istiqamətində addımlar atmağın artıq vaxtı çatıb. Hətta Bakıda son illərdə metro tikintisi də ürəkaçan vəziyyətdə deyil, bu sahədə də ləngimələr yaxın bir neçə ilə ictimai nəqliyyat sektoru üçün də xeyli problemlər hazırlamaqdadır.

*- İlin son ayı ərəfəsindəyik və yenə də əfv gözləntisi var. Necə bilirsiniz, nəhayət, Azərbaycanı dilə-dişə salan siyasi məhbus söhbətlərindən birdəfəlik xilas olmaq mümkün olacaqmı? Siz bununla bağlı nə gözləyirsiniz?*

- İlin sonunda mümkündür ki, əfv olsun. Əlbəttə, beynəlxalq arenada bizə qarşı bəhanə verəcək bütün addımların qarşısını almaq üçün insan hüquqları təşkilatlarının bu adla tanıdığı şəxslərin azadlığa buraxılması bizim arqumentləri xeyli gücləndirərdi. Hərçənd ki, bu şəxslərin siyasi məhbus olduğunu düşünməsəm də, fikrimcə, qlobal problemlərimizin həlli istiqamətində maneələri yumşaltmaq üçün Azərbaycanın bu mövzuda ittihamlarla üzləşməsi ürəkaçan deyil. Ancaq bu mövzuda hələ ki, nikbin proqnoz söyləyə bilmərəm.

*- Fazil bəy, 2018-ci il prezident seçkilərində ortaya iddia qoymaq niyyətindəsiniz, yoxsa partiya olaraq hansısa namizədi dəstəkləyəcəksiniz? Bu seçkilərlə bağlı gözləntiləriniz maraqlıdır.*

- 2018-ci ilin prezident seçkiləri siyasi həyatda iştirak edən hər bir subyekt üçün çox mühüm hadisədir. Siyasi partiyalar isə bilavasitə öz proqram məqsədlərini gerçəkləşdirmək və siyasi hakimiyyət uğrunda iddialarını ortaya qoymaq üçün əlverişli fürsət qazanırlar. Böyük Quruluş Partiyası olaraq biz də seçkilərdə iştirakımızla bağlı qərarı önümüzdəki ilin ilk aylarında verməyi düşünürük. Bu barədə rayon təşkilatlarında müzakirələrdən sonra imkanlarımız və şanslarımız barədə daha aydın təsəvvürümüz olacaq. Partiya başqanı olaraq mənim mövqeyim budur ki, öz namizədimizlə prezident seçkilərində iştirak etməmiz daha məqsədəuyğun olar.

❑ **Elşad PAŞASOY**



# Sirat körpüsü

Zamin HACI
zaminhaci@gmail.com

**Dünən Alla Puqaçovanın "Köhnə saatlar" (orijinalda, ruscasında "Starinnıe çası") mahnısına qulaq asırdım. Birdən ağlıma gəldi ki, bu mahnı Sezen Aksu-nun "İtirilmiş illər" (Anadolu türkcəsində, yenə orijinalında "Kaybolan yıllar") mahnısının əkiz bacısıdır. Elə bil bu insanlar bir-birindən xəbərsiz, təxminən eyni zaman kəsiyində - ötən əsrin 70-ci illərinin sonu, 80-lərinsə əvvəlində - eyni ovqatı, eyni ruhu daşıyıblar. Əlbəttə, mahnıların sözləri, musiqisi ayrıdır. Mən məhz musiqinin, nəğmənin insana bəxş etdiyi, insanda oyatdığı duyğulardan danışıram. Bu duyğu hər iki mahnıda eynidir. Çünki hər iki mahnı ötən vaxtın geri qaytarılmasının qeyri-mümkünlüyü, həyatın bir az da qüssəli təkrarsızlığı haqdadır.**

Burada musiqi analizi yapmaq fikrindən uzağam, sadəcə son günlər bir gözəl, gənc sənətkarımızın psixodelik rok üslubunda oxuduğu mahnının cəmiyyətdə oyatdığı təpkiyə maraqla baxdım, musiqi haqda bir az da buna görə düşündüm. Mən o gəncə nəsə məsləhət verim, ya kimlərisə onu sevməyə, sevməməyə təhrik edim - bundan qətiyyətlə uzağam. O rokçu gəncin intervüsünü dinlədim, hind fəlsəfəsi, buddizmlə maraqlandığını eşitdim. Deməli o, buddizmin boşluq anlayışından xəbərdardır və bütün mırıldananları, həmçinin heyranlıqla qımıldananları boş verəcəkdir. Ancaq bir müqayisəni mütləq yazmalıyam, çünki əsgərlikdə olanda görmüşəm. Bizim dağ kəndlərimizdə hinduşkalar olur, onlar bəzən uzun müddət maşın görmürlər, yoldan avtomobil keçəndə isə qorxunc heyrətlə qaqqıldaşıb müdafiə pozası seçir, avtomobilə cummaq istəyirlər. Bu mənada bəzi ərazilərdə roku hinduşka kimi qarşılayanların olması təbiidir. Ancaq hinduşkaların da vəziyyəti hazırda xarabdır, çünki qar artıq yağmışdır.

Bugünlərdə minval.az saytı 2000-ci ilin 25 noyabr zəlzələsini xatırladan material vermişdi, orda Bakıda toyda insanların zəlzələyə reaksiyasının videosu vardı. Mənə isə daha çox saytın şərhi məzəli gəldi. Yazmışdılar ki, bu qısa video həmin zəlzələdən əlimizdə olan YEGANƏ (fərqləndirmə mənimdir - Z.H.) videodur. Təsəvvür elə, yüz ildə bir zəlzələn ola, onun da toy videosu qala. Bəylə gəlin, tamada zəlzələyə necə münasibət bəsləmişdir. Bunu seysmik zonada yaşayan yapona danış, xarakiri eləsin. Əlbəttə, o vaxtlar indiki kimi hər yerdə canlı kamera, video çəkiliş yox idi, o üzdən zəlzələdən tək videomuzun toydan qalması təbiidir, bunu isə zarafat üçün yazıram. Eyni zamanda, ailə qurmaq üçün qızı toyda seçən, muzeyindən, mədəniyyət ocağından, məktəbindən çox toyxanası olan xalq üçün toydan başqa çəkiləsi nə hadisə var? Belə yerdə rok oxuyana toy tutmasınlarmı?

Ancaq elə temalar var zarafat edə bilməzsən. O tema özü səninlə zarafatlaşar, qaldırar vurar yerə. Örnək üçün, AzTV mövzusu. Burda hətta "z" hərfini balaca yazmaq da insanı məhv edə bilər. AZTV bizim alın yazımızdır, müqəddəs kitabımızdır, dinimiz, imanımız, kainatda yerimizi göstərən mayakdır. Elə bu son rokçu gəncin dillər əzbəri mahnısı ilk dəfə AZTV-də səslənmişdi. AZTV isə bunu efirə verməyibmiş! İndi özünüz fikirləşin ki, bunun senzuraya uğratdığı, efirə vermədiyi süjet bu qədər müzakirəyə, ictimai diqqətə səbəb olursa, gör efirə verdiyini müzakirə eləsək nələr baş verər. Yaxşı ki, biz AZTV-yə az baxırıq, çünki onun işığından, nurundan gözümüz kor olardı.

Bizim hər sahədə öz AZTV-miz vardır, bu kanal bir növ ictimai mutasiya mənbəyidir, azərbaycanlıların surroqat anasıdır, bizim cinsimizi göstərən UZİ-dir, eyni zamanda hər birimizin axirət dünyasına açılan Sirat körpümüzdür. Nə qədər adam AZTV ekranından cəhənnəmin dibinə yuvarlanıb, nə qədər bəndənin ağzı isə cənnət nemətlərinə çatmışdır. Təzəlikcə bir müəllim dostum zəng eləmişdi, dedi AZTV-də işləyirəm. Məlum oldu öz məktəbinə, təhsil sisteminə "AZTV" deyir. Çox xoşum gəldi, dedim elə mən də AZTV qəzetçisiyəm. Müxalifətimiz AZTV müxalifətidir, iqtidarımız AZTV iqtidarıdır.

Yazını isə Sezen xanımın köhnə mahnılarının birindən sitatla bitirirəm:

"Elimde olsa yırtardım gölgeni
Resmine vurmuş bir pazar günü".

# ATƏT-in Minsk Qrupu tarixin arxivinə verilir?

**Ötən həftənin mühüm hadisələrindən biri də Soçidə Türkiyə, Rusiya və İran prezidentlərinin - Putin, Ərdoğan və Ruhaninin Suriya böhranı mövzusunda keçirdiyi görüş oldu. Görüş Suriya (Yaxın Şərq) böhranının həllində tarixi əhəmiyyətli anlaşmanın əldə olunması ilə yadda qaldı. Əksər ekspertlərə görə, bu format uğurla davam edərsə, Yaxın Şərqdəki ən qanlı münaqişə ocağı söndürülə bilər.**




## Böyük Qarabağ anlaşması üçün unikal model: Rusiya "kartları" dəyişir

Suriya anlaşması Moskva, Ankara və Tehranın Cənubi Qafqazda da ortaq məxrəcə gəlməsini yaxınlaşdırır; üçlü həmsədrlik əvəzinə "regional üçlük" - mümkünsüz olan mümkünə çevrilə bilər, əgər...; **rusiyalı analitik:** "Şansı qaçırmaq Ermənistan üçün ölümcül olacaq..."

Ən önəmlisi, Soçi görüşü və onun nəticələri üç paytaxtın digər konfliktlərin həllində də ortaq əməkdaşlığı üçün yaxşı örnək yaradır. Həmin konfliktlərdən biri də 29 ildir alovlanan Dağlıq Qarabağ münaqişəsidir.

*****

Bu xüsusda tanınmış rusiyalı siyasi analitik və tarixçi Oleq Kuznetsovun Azərbaycan mediasına son müsahibəsində bəzi fikirlər diqqət çəkir. Politoloq deyib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsini həlli üçün həqiqətən də İran və Türkiyənin yardımından istifadə edə bilər (Axar.az).

"Laçın və Kəlbəcər istisna olmaqla, 5 rayonun Azərbaycana qaytarılması təklifi 1999-cu ildən etibarən Rusiya tərəfindən müxtəlif tonallıqla təklif olunur. Mən sizə deyim ki, bəlkə də daha çox. 1999-2016-cı illərdə Ermənistan bu addımı atmağa yaxın idi. 1999-cu ildə İrəvanda olan terror aktından, Nair Unanyanın terror təşkilatı erməni siyasi elitasının 22 nümayəndəsini qətlə yetirəndən sonra hakimiyyətə Köçəryan- Sərkisyanın "Qarabağ klanı" gəldi. Amma hətta o da 2015-ci ildə Azərbaycana güzəştə getməyə hazır idi. Lakin 2016-cı ilin aprel döyüşləri Kremlin bu təşəbbüsünün reallaşmasına imkan vermədi" - analitik deyib.

Onun sözlərinə görə, Moskva Qarabağ münaqişəsinin nizamlanması məsələsində İrəvana daim təzyiq göstərir. "İndi - Suriyadakı beynəlxalq terrorizmə qarşı Moskva nüfuza sahib olduğu bir dövrdə bu, daha da kəskinləşib. Lakin bütün dünyanı silah gücünə sülhə məcbur edən "şahin" imici ilə yanaşı, Rusiya həm də beynəlxalq konfliktləri danışıqlar yolu ilə həll edə bilən "göyərçin" obrazına da sahibdir. Buna görə də Rusiya indi Dağlıq Qarabağ mövzusuna dair obyektiv səylərini artırır və bundan sonra da artıracaq", - deyə politoloq qeyd edib.

Ekspertin qənaətincə, hazırda Kreml Ön Asiya regionundakı münaqişələrin həllində prinsipial olaraq yeni taktikaya keçib və bunu Suriyanın timsalında aydın görmək olar: "Avropa və ABŞ əvəzinə Rusiya Türkiyə və İranla danışıqlar masasına oturdu, onları Suriyadakı sülhün və sabitliyin təminatçısı olaraq seçdi. Əminəm ki, əgər bu regional nizamlanma modeli Suriyada özünü doğruldarsa, Qarabağ münaqişəsi ATƏT-in Minsk Qrupunun səyləri nəticəsində deyil, İran, Türkiyə və Rusiya vasitəsilə həlli yolunu tapacaq".

Politoloq fikrini belə əsaslandırıb: "Hamımız Türkiyənin Azərbaycan, İranınsa Ermənistan üzərində necə bir təsirə sahib olduğunu bilirik. Rusiya isə Cənubi Qafqaz ölkələri üçün əsas silah tədarükçüsüdür. Yəni yalnız Rusiya, İran və Türkiyə Azərbaycan və İrəvana siyasi yollarla deyil, praktiki təsir göstərə bilir. Qarabağ probleminin yeni mərhələdə həlli yolu, məncə, məhz bu cür baş tutacaq. Hazırda İrəvanın dünyada beynəlxalq arenanın sözünü dinləyən normal dialoq qurmaq qabiliyyətinə malik ölkə imici ilə bu konfliktə son qoymaq şansı var. Lakin o, həm də bu tarixi şansı qaçırıb bütün münasibətləri məhv də edə bilər, bu isə Ermənistanın taleyi üçün ölümcül olacaq".

Musavat.com-un məlumatına görə, tanınmış rusiyalı telejurnalist və təhlilçi Maksim Şevçenko da Qarabağ probleminin həllini Ankara-Moskva-Tehran dialoqunda mümkün sayır. Onun sözlərinə görə, Qərbin, ABŞ-ən hədəfi əksinə, Qarabağ konflikti hesabına bölgədə möhkəmlənib "Rusiya, Türkiyə və İranı Cənubi Qafqazdan vurub çıxarmaqdır".

*****

Əlbəttə ki, hər iki rusiyalı təhlilçinin mövqelərini bölüşmək də olar, bölüşməmək də. Məsələn, qeyd eləmək olar ki, Rusiyanın da əsas hədəflərindən biri Qarabağ ixtilafı hesabına bölgədə möhkəmlənməkdir. Lakin ABŞ və Avropadan fərqli olaraq, Kremlin bu problemi çözmək üçün əlində real rıçaqlar var. Yəni Rusiya istəsə, ədalətli şərtlərlə problemin həllində ciddi irəliləyişə nail ola, bu zaman bölgədə qala da bilər.

Yaxud "5 rayon" qarşılığında Azərbaycanı gözləyən potensial fəsadları burda xatırlatmaq olardı. Ancaq biz "Lavrov planı" və ya "Putin planı" deyilən və bir neçə rayonun qaytarılmasının nəzərdə tutulduğu iddia edilən variant haqda müfəssəl bilgiyə malik deyilik. Bir neçə rayon qarşılığında Bakıya qarşı irəli sürülən şərtlər haqda da yalnız ekspertlər səviyyəsində ehtimal və mülahizələr irəli sürülüb.

Ancaq maraqlıdır ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Putinlə Soçi görüşündən sonra belə bir fikir söyləmişdi: "İşğal olunmuş 7 rayondan 5-i ilə bağlı daha əvvəl çıxan qərar var. Bu qərarlara əməl edilməsinin vacibliyi üzərində dayandıq. Putin məsələyə müsbət baxır, amma görürəm ki, çox ümidli deyil".

Ayrı sözlə, 5 rayon məsələsi artıq Türkiyə üçün də təzə məsələ deyil və ola bilsin ki, mətbuatda hallanan şərtlər gerçəyi dolğunluğu ilə ifadə eləmir. Hər necə olmasa, qardaş ölkə rəhbərliyi Putinlə təmaslarda Azərbaycanı qane etməyən həll variantında israr eləməz. Ankara-Moskva ilişgilərinin həm də Suriya məsələsindən dolayı getdikcə dərinləşməsi isə Qarabağ ixtilafının, Qafqazdakı digər ixtilafların həllinə də pozitiv inikas edə bilər - nəyə ki, rusiyalı politoloq Oleq Kuznetsov yuxarıda vurğu salıb.

Onu da nəzərə alsaq ki, işğalçı Ermənistan Türkiyə-Rusiya yaxınlaşmasından xüsusi təlaş keçirir, o zaman İranın Qarabağ prosesinə qoşulması İrəvan üçün müəyyən mənada "bufer rolu" oynaya və böyük anlaşmanı həqiqətən də yaxınlaşdıra bilər.

Hərçənd, fərqli yanaşmalar da var. O sırada politoloq Arzu Nağıyev diqqəti belə bir məqama çəkir: "Təklifdə Azərbaycana Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının qaytarılması nəzərdə tutulur. Fikir verin, Ağdam istisna olmaqla, digər adları çəkilən rayonlar İranla həmsərhəddir. Azərbaycanın işğal olunmuş ərazilərindən İranla 143 km olan sərhədinə heç bir dövlət tərəfindən nəzarət olunmur. Əgər sabah İran sərhədlərin müzakirəsi məsələsini önə çıxarsa, bu, artıq beynəlxalq səviyyədə müzakirə olunacaq bir problemə çevriləcək. Bunu anlayan Ermənistan məhz buna görə sözügedən məsələdə özünü sığortalamağa çalışır. Guya həmin rayonlar İranla bufer zonasıdır və gələcəkdə regionda təhlükəsizliyə təhdid yarada bilər. Reallıqda 5 rayon məsələsinin əsl mahiyyəti məhz bundan ibarətdir".

*****

5 rayonun qaytarılması ilə bağlı Azərbaycana vəd edilən risklərə gəlincə, əslində Türkiyə olan yerdə bu, mümkün ola bilməz. Qardaş ölkə Azərbaycanın ziyanına olan prosesdə yer almaz. Çünki "Azərbaycanın dərdi bizim dərdimizdir" deyib Ərdoğan. Əminik ki, bu yanaşma Moskva-Ankara-Tehran həll üçlüyündə də aparıcı olacaq.

Regional güclərdən ibarət üçlü format isə gerçəkdən də Qarabağ məsələsində ATƏT-in Minsk Qrupu üçlüyünü uğurla əvəzləyib praktik nəticəyə nail olmaq imkanına malikdir. Bir şərtlə ki, Suriya məsələsindəki kimi Dağlıq Qarabağ məsələsində də Moskva həll təşəbbüslərində eyni dərəcədə səmimi olsun. Yerdə qalanlar elementlərdir.

❑ **Analitik xidmət**

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

# Avropa Birliyi ilə saziş Ermənistanın blokadasını zəiflədə bilərmi? - iki rəy

**Noyabrın 24-də Ermənistan Avropa Birliyi (AB) ilə hərtərəfli və geniş əməkdaşlıq haqda saziş imzalayıb. Şərq Tərəfdaşlığının Brüsseldə keçirilən beşinci sammiti zamanı imzalanan sənədə əsasən, Ermənistan ölkədə islahatları davam etdirmək öhdəliyini götürür, Avropa İttifaqı isə bu prosesə dəstək olmağa boyun olur. Ermənistan prezidentinin rəyincə, razılaşma son zamanlarda ikitərəfli münasibətlərin əhəmiyyətli dərəcədə inkişafını əks etdirir və bu münasibətlərin gələcəkdə dərinləşməsinin vektorlarını müəyyən edir.**

Serj Sərkisyan hesab edir ki, bu sənəd Ermənistan və Avropa İttifaqı arasındakı 25 illik münasibətləri tarixində ən vacib sənədlərdən biridir. İmzalanmış sənəd Ermənistan və AB ölkələrinin hamısının parlamentləri tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minəcək. Amma Ermənistanın xarici işlər nazirinin müavini Karen Nazaryan bildirib ki, sənədin bəzi müddəaları imzalanandan dərhal sonra, bütün ölkələrin parlamentləri tərəfindən ratifikasiya olunmazdan əvvəl qüvvəyə minə bilər.

Bəs belə olan halda işğalçı ölkə ilə təşkilat arasında bağlanan saziş düşmən ölkənin iqtisadi blokadasının zəifləməsinə gətirib çıxara bilərmi? Digər tərəfdən, Azərbaycanın Ai ilə əməkdaşlıq sazişinin imzalanması da gündəmdə ikən, bu niyə arxa plana atıldı? Azərbaycan niyə bu sazişə getməkdə tərəddüd edir və Ermənistan bizi qabaqlayıb?

"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, əslində Ermənistanın tam iqtisadi blokadada olduğunu söyləmək doğru deyil: "Çünki o, Gürcüstanla və İranla həmsərhəddir və bu iki ölkə vasitəsilə dünya ticarətinə qoşulmaqda ciddi bir problem yaşamır. XXI əsrdə hansısa ölkəni tam blokada şəraitində saxlamaq mümkün deyil. Sadəcə, Azərbaycan tərəfi haqlı olaraq işğal faktını əsas gətirərək, bir çox regional layihələrdən Ermənistanı təcrid edib. Ancaq Ermənistan bu işğalçılıq siyasətindən əl çəksəydi, regional layihələrdə iştirak edə bilərdi. Bu saziş blokadanı zəiflətməkdən daha çox Ermənistana əlavə üstünlüklər gətirəcək. Bu ölkə Şərq tərəfdaşlıq Proqramının tərkib hissəsindən biri kimi Avropa Birliyi ölkələrinə güzəştli şərtlərlə mal ixrac edə bilər. İlkin mərhələdə, ildə təqribən 250 milyon avroluq AB-yə mal ixrac edə bilər. Avropa Birliyinə mal satmaq çox çətin məsələdir, uyğunluq sertifikatları, keyfiyyət sertifikatları olmalıdır, şirkətlər çox böyük prosedurlardan keçməlidirlər ki,





**Natiq Cəfərli:** "Müqavilə Ermənistan üçün müəyyən fürsətlər açacaq, onun iqtisadi vəziyyətinə pozitiv təsir göstərəcək"



**Natiq Miri:** "Ermənistanın AB ilə tərəfdaşlıq sazişi Avropadan daha çox, Sərkisyanın hərbi xuntasının maraqlarına xidmət edir"

Avropa bazarına daxil ola bilsinlər. Çünki həm nəzarət, həm də rəqabət güclüdür. Ancaq tərəfdaş ölkələrə ən azı 250 milyon avroluq bir kvota ayrılıb. Ermənistan iqtisadiyyatının həcmi çox kiçik olduğundan bu 250 milyon avro ölkənin iqtisadiyyatına çox böyük dəstək olacaq. Çünki həm spirtli içkilərin, həm digər kənd təsərrüfatı məhsullarının Avropaya ixracında bir qapı yaranacaq. Bu baxımdan müqavilənin imzalanması Ermənistan üçün müəyyən fürsətlər açacaq, iqtisadi vəziyyətinə pozitiv təsir göstərəcək".

Azərbaycanın bu sazişə qoşulmaqda tərəddüd etməsinə gəlincə, N.Cəfərli bildirdi ki, hökumət daxili bazarı qorumaq adı ilə bunu gecikdirir: "Ölkəmizin Ümumdünya Ticarət Təşkilatına üzvlüyü məsələsində də hökumət eyni bəhanəni gətirir. Ermənistan 2013-cü ildən ÜTT-yə üzvdür. Avropa Birliyi ilə ticarət anlaşmalarının genişlənməsi üçün ÜTT-yə üzvlük şərtlərdən biridir. Azərbaycan hələ ki, bu təşkilata da üzv olmayıb və əsas kimi daxili bazarın qorunması fikrini səsləndirir. Ancaq bu doğru yanaşma deyil. Azərbaycanda illərdir daxili bazarda onsuz da Avropa məhsulları hegemonluq edir. Bu gün elə sahələr var ki, 100 faiz xaricdən asılıdır. Kənd təsərrüfatı məhsullarına gəldikdə isə, onsuz da bu sahədə elə bir problem yoxdur. Çünki daxili bazarda yerli məhsul mövsümi olaraq çox olur. Hətta xaricə satdığımız məhsulların içində də kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Bu satdığımız ölkədə də əsasən Rusiyadır. Bu baxımdan daxili bazarın qorunması bir bəhanədir. AB ilə sazişin imzalanmasının gecikdirilməsi Azərbaycanın öz üzərinə müəyyən öhdəliklər götürmək istəməməsi ilə bağlıdır. Çünki müqavilə ikitərəflidir. İqtisad təhlükəsizlik və digər sahələrdə problem yoxdur. Azərbaycan tərəfi Avropa iqtisadi strukturları ilə kifayət qədər effektiv əməkdaşlıq edir. İstər NATO, istər AB ilə istər təhlükəsizlik, istərsə də regional əməkdaşlığı məsələsində heç bir problem yoxdur. Problem sazişin 4-cü bəndindədir. Əsas ana bəndlərdən biri mətbuatla bağlı, müxalifətlə bağlı, vətəndaş cəmiyyəti ilə bağlı , həmçinin məhkəmələrlə bağlı müəyyən öhdəliklər nəzərdə tutulub ki, Azərbaycan onu öz üzərinə götürməlidir. Müqavilənin imzalanması prosesinin uzanmasının əsas səbəbi məhz budur".

Politoloq Natiq Miri isə "Yeni Müsavat"a danışarkən bildirdi ki, Ermənistanla AB arasında imzalanan sazişi o qədər də şişirtmək lazım deyil: "Bu sazişin imzalanması ona görə mümkün oldu ki, bu sənəddə Rusiyanın maraqlarından kənarda olan bütün müddəalar zərərsizləşdirildi. Sazişdə artıq AB və tərəfdaşlıq sərhədləri çərçivəsində azad ticarət zonasının yaradılması və burada iştirak məsələsi nəzərə alınmadı. Bu da Ermənistan üçün mühüm məsələdir. Çünki bu ölkə azad ticarət zonasına daxil olardısa, bu onların iqtisadi blokadadan çıxması üçün çox əhəmiyyətli bir addım olardı. Rusiya buna əngəl oldu. Çünki Avrasiya İttifaqında belə bir azad ticarət zonası nəzərdə tutulduğu və bir dövlətin iki ittifaqın azad ticarət zonasında iştirakını Rusiya qeyri-mümkün saydığı üçün Ermənistanla AB arasında bu müddəa tamamilə aradan qaldırıldı. Rusiyanın əleyhinə ola biləcək hər hansı geosiyasi müddəa var idisə, onlar da tamamilə zərərsizləşdirildi. Sadəcə olaraq, AB ilə Ermənistan arasında siyasi-iqtisadi əməkdaşlıq çərçivəsində gələcəkdə münasibətləri daha da isti məcraya daşımaq və inkişaf etdirmək nəzərdə tutulur".

Politoloq onu da vurğuladı ki, Avropa standartlarında həm demokratiya, insan hüquqları və digər demokratik institutların inkişafı nəzərdə tutulur ki, Rusiyanın istəyi və Sərkisyan hakimiyyətinin maraqları olmadan bunu Ermənistanda həyata keçirmək mümkün olmayacaq: "Çünki Ermənistanın daxil olduğu Avrasiya İttifaqı avtoritar rejimlərdən ibarətdir bir ittifaqdır və onun nüvəsi ən böyük avtoritar ölkə olan Rusiya sayılır. Belə olan halda hərbi xunta vasitəsilə idarə olunan kiçik bir ölkənin gələcəkdə öz cəmiyyətinə demokratiya gətirməsini gözləmək əbəsdir. O baxımdan Ermənistanla AB arasında tərəfdaşlıq strateji sazişi formal xarakter daşıyır və Avropadan daha çox Sərkisyanın rəhbərlik etdiyi hərbi xuntanın maraqlarına xidmət edir. Bu gün Ermənistan mediasında və cəmiyyətində bu ölkənin sanki Avropaya çox ciddi inteqrasiyası müzakirə edilir. Əslində Sərkisyan hakimiyyətinin də hədəfi daxa çox daxili auditoriyaya oynamaqdan ibarətdir. Bir müddət ermənı cəmiyyəti bunu müzakirə etdikdən sonra 2019-cu ildə ölkənin konstitusiyasının dəyişdirilməsi baş verəcək ki, bu kontekstdə də bizim hakimiyyətdə növbəti dəfə Sərkisyanı görmək ehtimalımız daha çox olacaq".

❑ **Nərgiz LİFTİYEVA**

---

# Qəfil ölümdən xilas yolu - "Stent for life"



**Elşad PAŞASOY**
epashasoy@yahoo.com

**Jurnalist həmkarımız Natiq Qədimovun 41 yaşında qəfil ürəktutmasından vəfat etməsi onu yaxından tanıyan-tanımayan, fərqi yoxdur, hər kəsi üzdü. Bu acı xəbəri eşidən kimi ilin əvvəlində Musavat.com-da dərc olunan bir yazını xatırladım.**

Deputat, tanınmış ürək-damar cərrahı, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası İdarə heyətinin sədri Rəşad Mahmudovla qəfil ölümlərlə bağlı etdiyimiz söhbəti nəzərdə tuturam. Rəşad həkim bu ölkədə çox ürək krizi olan insanların həyata qaytarıb və şəfalı əlləri ilə öz şərəfli missiyasını davam etdirməkdədir. O, parlamentdəki çıxışlarının birində deməşdi ki, dünya ölkələrinin səhiyyəsində tətbiq olunan "stent for life" proqramından yararlanmaqla Azərbaycandakı qəfil ölümlərin böyük bir hissəsinin qarşısını almaq tamamilə mümkündür.

Məşhur cərrah ürək tutmalarının əsasən 40-60 yaş arasındakı insanların arasında geniş yayıldığını da söyləmişdi. Fakt ortadadır. Təkcə 41 yaşında ürəyindən gedən Natiqdirmi? Elə qəfil dünyasının dəyişən jurnalist dostlarımızın siyahısına baxsaq, ölkədəki mənzərə göz önünə gələr. Bu, hələ jurnalistikanın qəfil itkiləridir. Görün digər sahələrdə nə qədər "qəfil"lər var.

"Stent for life" - "yaşamaq üçün stendləmə" deməkdir. Bu proqram həm ürək, həm beyin damarlarını bərpa etmək imkanı verir. Yəni damarın tam tutulması anında belə o, xəstəxanaya çatdırılarsa, həmin tibbi avadanlıqlar vasitəsilə iki saat ərzində damarın yolunu bərpa etmək və pasiyenti ölümdən xilas etmək mümkündür.

Rəşad həkim deyir ki, bu proqramın ölkəmizdə qəbul olunması ildə 15 minə yaxın kəskin infarkt xəstəsi olan insanların azı 90 faizinin həyata normal şəkildə qaytarılması, ailələrinin başında qalması deməkdir. Təsəvvür edin, ildə 15 min insan! Hazırda isə bu insanlar ya əlilə çevrilir, ya da həyatını itirir. Əlilliyə çevrilməsi həm də onların əmək qabiliyyətini itirməsi deməkdir. Bu isə təkcə həmin şəxslərin ailələrinə yük olmaları deyil, həm də dövlətə yük olurlar. Bunun ardınca təbii ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlillərin sayının artmasından, paralel olaraq pensiyaçıların statistikasında artan tempin müşahidə olunmasından danışmağa məcbur olacaq. 10-15, hətta 20 min adamın təkcə ürək probleminə görə dövlətə yük olması sadə məsələ deyil. Hələ düşünən beyinləri itirməyimiz...

Gözləyirdim ki, həmkarımızın qəfil dünyasını dəyişməsi xəbərindən sonra bu təşəbbüs 2018-ci ilin büdcə müzakirələrinin gedişində xatırlanacaq. Gələn ilin xərclər smetasına bir əlavə də etmək olardı. Böyük vəsaitdən də söhbət getmir, hər halda cərrah millət vəkili deyir hökumət bunun üçün adambaşına 1-2 manat ayırsa, həmin tibbi avadanlığı ölkəmizə gətirmək olar. Uzağı, 20 milyon manatdan söhbət gedir. Gələn il üçün hansısa yolun, körpünün tikintisini təxirə salmaq, yaxud daha ucuz variantlara üstünlük vermək olardı. Bir yolu bir-iki il gec də salmaq olar, təki gənc, ortayaşlı insanların ömrü yarıda qırılmasın.

Əslində heç kəs qəfil ölümdən sığortalanmayıb. Elə bu il neçə qəfil, sarsıdıcı xəbər eşitdik. Sinifdə qəfil ürəktutmasından dünyasını dəyişən müəllimdən tutmuş, sükan arxasında gözlərini əbədi yuman sürücüyə qədər. Təkcə sadə insanlarmı? Xeyr. Natiq Qədimovun adaşı, sabiq nazir Natiq Əliyev də ürəyindən dünyasını dəyişdi. Kim bilir, Azərbaycanda "Stent for life" - "yaşamaq üçün stendləmə" olsaydı, kifayət qədər təcrübəli məmur hələ neçə illər dövlətimizə xidmət edə bilərdi.

Elə bu yazını yazarkən saytların birində xəbər gördüm. Cəlilabadın Alar kənd icra nümayəndəsinin 57 yaşlı müavini qəfildən dünyasını dəyişib. Nə qədər ki, həyəcan təbilinə reaksiyamız adekvat deyil, bu da son qara xəbər olmayacaq. Qeyd etdiyim kimi, qəfil ürək tutması məmura, jurnalistə, müəllimə baxmır. Düzdür, ürəktutmaları müxtəlif faktorlarla ələqədardır. Buraya qidalanmadan tutmuş, stress, ətraf mühit faktorları aiddir. Yəni deyilə bilər ki, biz səbəbləri aradan qaldırmaqdansa, nəticədən danışırıq. Ancaq hələ ki, biz damarlarımızın tıxanaqlığı yaradan səbəbləri aradan qaldırmaqda acizik.

Hələ ki, yağın baha olmasını ürəyimizə dərd edirik, keyfiyyət məsələsi küll halında bizi düşündürmür təəssüf ki. Bir gün gələcək sağlamlığımız naminə keyfiyyətə üstünlük verəcəyik. Ona qədərsə ürəyimizi qəfil tutmalardan qorumaq lazımdır. Hökumətimiz 1 dekabr müzakirələrində bu məqsədlə səhiyyəyə 15-20 milyon ayırsa, məsələ həllini tapar. İnsan faktoru ilə müqayisədə milyonlar nədir ki?..

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

# Məhkəmə "8-ci kilometr" bazarını Fərhad Əliyevin adına çıxardı

**Bazarın sahiblərindən biri:** "Əgər bazar Fərhad Əliyevindirsə, onu çağırıb məhkəmədə bu haqda soruşmalı idilər..."



Fərhad Əliyev

**"Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənov bazarı sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin adına çıxardı, sonra da götürüb dövlətin nəfinə müsadirə olunması qərarı verdi" - "Vosmoy bazarı" kimi tanınan "8-ci kilometr bazarı"nın sahiblərindən biri Salman Səfərov belə deyir.**

Onun sözlərinə görə Həbib Həsənovun iş üzrə çıxardığı hökm qanunsuzdur. S.Səfərov qardaşı Qəhrəman Səfərovla birlikdə hazırladıqları apelyasiya şikayətini artıq Bakı Hərbi Məhkəməsinə təqdim ediblər. Sahibkarın sözlərinə görə, Həbib Həsənovun hökmü hərtəfərli ədalətsizdir: "Biz apelyasiya şikayətimizdə bazarın geri alınmasını tələb edirik. Qardaşımla birlikdə eyni iş üzrə zərərçəkmişik, şikayətimizi də bir yerdə vermişik. İttihamda yazılırdı ki, Akif Çovdarov quldurluq yolu ilə 33 milyon manat əldə edib. Amma hökmdə quldurluq məsələsinin üstündən hakim sükutla keçib. Hakim ədalətsiz qərar çıxarıb. Akif Çovdarov, Hilal Əsədov bazarı bizim əlimizdən quldurcasına, Fərhad Əliyevin adını ortaya atmaqla alıblar. Bu adamlar Eldar Mahmudovun göstərişi ilə bazarı əlimizdən alıb öz aralarında bölüblər. Bu gün Akif Çovdarov həbsdə olsa da, ona az da olsa cəza verilsə də, Hilal Əsədov azadlıqda gəzir. Hökm üzrə dövlətə 33 milyon manat pul köçürüblər. Hakim A.Çovdarovun həmin pulları hansı yolla əldə etməsini aydınlaşdırmır, hökmdə yazmır. Aydındır ki, bu pullar quldurluq yolu ilə əldə edib. Əgər hakim bu məqamı aydınlaşdırsaydı, gərək Akif Çovdarova quldurluq ittihamı verilərdi, bazarın əlimizdən quldurluqla alındığını da təsdiq edərdi. Bunu etmədilər. Eldar Mahmudov Fərhad Əliyevin adını necə ortaya atıb bizə qarşı quldurluq təşkil etmişdisə, Hakim də faktiki olaraq onların quldurluqlarına don geyirdi. Bizim Fərhad Əliyevlə heç bir əlaqəmiz yoxdur. Məhkəmə ortaya bunu təsdiqləyən bir sübut qoya bilmədi. Amma hökmdə yazdılar ki, bazar Fərhad Əliyevindir, ona görə də dövlətə keçir. Əgər bazar Fərhad Əlievindirsə, onu çağırıb məhkəmədə bu haqda soruşmalı idilər. Amma bunu da etməyiblər. Faktiki quldurluqla əlimizdən alınan bazarı Fərhad Əliyevin adına çıxarmaqla dövlətə keçirdilər. Bu bizə qarşı növbəti cinayətdir. Bu işlər Eldar Mahmudovun göstərişi ilə baş tutub. İcraçılar Akif Çovdarov, Hilal Əsədov olub. Hilal Əsadov ifadəsində də təsdiqlədi ki, bazarın əlimizdən alınmasını Eldar Mahmudov tapşırıb".

S.Səfərov bildirib ki, şikayətlərində həmçinin Akif Çovdarova ömürlük azadlıqdan məhrum edilməsi barədə hökm verilməsini tələb ediblər: "Bizim əlimizdən bazarın alınması Eldar Mahmudovun göstərişi ilə olub. Burada Hilal Əsədovun da adı keçir. Bazara 50 faizinə sahib olan Hilal Əsədov kənarda qalıb. Biz şikayətimizdə onun barəsində cinayət işinin başlanmasını istəmişik. Akif Çovdarovu tutsalar da, cinayətkarın biri kənarda qalıb. Akif Çovdarov bazarı Hilal Əsədovla bölüb. Bazarın yarısı Hilal Əsədovun arvadının, yarısı da Akif Çovdarovun qızının adına keçirilib. Hilal Əsədov da məsuliyyətə cəlb olunmalıdır".

S.Səfərov bildirib ki, prokurorluq onlara maddi və mənəvi zərərin miqdarını 8 milyon 100 min manat təyin edib.

Qeyd edək ki, Bakı Hərbi Məhkəməsinin hökmü ilə "Vosmoy bazarı" kimi tanınan "8-ci kilometr bazarı" dövlət nəfinə müsadirə edilib. İstintaq sənədələrinə görə, "Vosmoy bazarı"nın bir hissəsi Akif Çovdarovun qızının, bir hissəsi isə MTN -də nazir müavini olmuş Hilal Əsədovun həyat yoldaşının adına olub. Bu epizod üzrə isə Səfərov qardaşları zərərçəkən kimi tanınmışdı. Onlar bazarın Akif Çovdarov və Hilal Əsədov tərəfindən əllərindən zorla alındığını bildirib və bazarın geri qaytarılmasını istəmişdilər. Zərərçəkmiş deyib ki, apelyasiya şikayətlərində bazarın onlara qaytarılması, maddi və mənəvi zərərin ödənilməsi ilə bağlı mülki iddialarının da təmin olunmasını istəyib.

Bakı Hərbi Məhkəməsinin hökmü ilə Akif Çovdarov 12 il, Səlim Məmmədov 11 il, Akif Əliyev 5 il, Orxan Osmanov 4 il müddətinə azadlıqdan məhrum edilib. Onların 33 milyonluq əmlakının əksəriyyəti müsadirə edilib və rütbələrinin alınması üçün təqdimat verilib.

❑ E.MƏMMƏDƏLİYEV

# Yavər Camalovun qardaşı oğlunun adı yeni qalmaqalda



## Nazirin qohumunun bankdan kreditlə aldığı "BMW X6"nı Gürcüstanda satması iddiası var; **Nağı Əliyev-Kəngərli:** "Bu adam nazirin qardaşı oğludur deyə, mənə qarşı belə saxtakarlıq olmalıdır?"

**Müdafiə sənayesi naziri Yavər Camalovun qohumlarının adı növbəti qalmaqalda hallanıb. Nazirin adının yenidən gündəmə gəlməsinin budəfəki səbəbkarı qardaşı oğlu Aqşin Camalovdur. Xatırladaq ki, bir neçə ay əvvələ qədər onun atası Əlikram Camalovun adı 18 min manat sələmə pul verməsinə görə aylarla gündəmdə qalmışdı.**

İndi isə daha bir qalmaqal Ə.Camalovun oğlu Aqşin Camalovun üzərindən gündəmə gəlməkdədir. Ortada 63 min manat dəyərləndirilən "BMW X 6" avtomobilinin nazirin qardaşı oğlu tərəfindən yoxa çıxarılması məsələsidir. Hazırda maşının sahibi Nağı Əliyev-Kəngərli məhkəmələrdə nazirin qardaşı oğlunun onu saldığı labirintdən yol axtarmaqdadır.

**Nazirin qardaşı oğlu maşını alır və...**

"2015-ci ilin əvvəlində 1 neçə ay sonra bankın pulunu ödəyə bilməyəcəyimiz aydın oldu. Ona görə də oğlum Tural Əliyevə kreditlə aldığımız maşını aparıb avtosalona qoyduq. Salonun sahibi Dəyanət Qurbanov bir gün zəng elədi, dedi ki, müştəri var, maşını satıram. Müştəri nazir Yavər Camalovun qardaşı oğlu Aqşin Camalov idi" - hazırda məhkəmələrdə haqqını tələb edən Nağı Əliyev-Kəngərli belə deyir. Onun sözlərinə görə 2013-cü ildə "Azəriqazbank"dan kreditlə "BMW X6" markalı, Az 10 ZU 747 dövlət qeydiyyat nişanlı avtomobili alıblar: "Mənimlə "AG Bank" ASC arasında 21 iyun 2013-cü il tarixdə illik 24 faiz dərəcəsi ilə 36 ay müddətinə 63 min ABŞ dolları məbləğində kredit verilməsi barədə müqavilə bağlandı. Girov təminatı kimi aldığımız "BMW X6" markalı maşın bankın xeyrinə yüklü edildi.

Müqavilənin şərtlərinə və ödəniş cədvəlinə uyğun olaraq 2015-ci ilin aprelinədək müntəzəm ödənişlər edilib. Sonradan isə maddi vəziyyətimdə yaranmış çətinliklərlə bağlı ödənişlər edə bilməycəyimi başa düşdüm. Bu barədə bank rəhbərliyində təmsil olunan şəxsləri məlumatlandırdım. İpoteka predmeti olan avtomaşını bankın razılığı ilə 2015-ci ilin iyununda Dəyanət Qurbanovun vasitəsilə Aqşin Camalova satdım. Aramızda razılaşma belə oldu ki, həmin vaxtadək ödədiyim kredit məbləğinə uyğun məbləği Aqşin Camalov mənə ödəyir. Qalan kredit borcunu banka ödəməsini üzərinə götürür".

**Kredit ödənişini "unudub"**

N.Əliyev-Kəngərli deyir ki, bu alqı-satqıdan 2 ay sonra bankdan ona zəng edib deyiblər ki, Aqşin Camalov ödəniş etmir: "Mən avtomobilin satıldığı günə olan cədvəl üzrə borcu tam olaraq ödəmişdim. Bank nümayəndələrinin və mənim birgə səylərimiz nəticəsində avtomobil tapılaraq saxlanıldı. Aqşin Camalov bundan sonra banka gəldi, həmin günədək olan kredit borcunu ödədi. Ona bankda izah etdilər ki, avtomobili alıb, sahibi də odur, müvafiq olaraq kreditləri də ödəməlidir. Elə orada bankın əməkdaşları mənə sənədlər verib imza etdirdilər. Dedilər ki, mənim banka heç bir borcum qalmır. İpoteka və kredit müqaviləsi avtomobili alan Aqşin Camalovla bağlanacaq".

**Nazirin qardaşı oğlu və banka ittiham: "Saxtakarlıq ediblər"**

N.Əliyev-Kəngərli deyir ki, ötən 2 il ərzində onu satdığı avtomobillə bağlı narahat edən olmayıb: "2017-ci ilin oktyabrında Nərimanov Rayon Məhkəməsindən iddia ərizəsi aldım. İddia ilə tanış olanda başa düşdüm ki, bankla avtomobili məndən alan Aqşin Camalov saxtakarlıq ediblər. Mən 2015-ci ilin iyununda bankın razılığı və iştirakı ilə Aqşin Camalova satmışam. Bundan sonra Aqşin Camalov bankın razılığı ilə maşının nömrə nişanını düz 3 dəfə dəyişib. Əgər bank razılıq verməsəydi, Aqşin Camalov nömrə nişanını dəyişə bilməzdi! Deməli, bank Aqşin Camalovu maşının sahibi kimi qəbul edib və ona nömrə nişanını dəyişmək üçün 3 dəfə icazə verib. Belə bir halda Aqşin Camalovdan kredit müqaviləsi üzrə öhdəlikləri - yəni ödəniş etməsini niyə tələb etməyiblər?"

N.Əliyev-Kəngərli bank rəsmilərini də qanunsuzluq etməkdə suçlayıb: "Bank məhkəmədə mənə qarşı iddia qaldırdıqdan sonra bilmişəm ki, lap əvvəldən mənə qarşı saxtakarlıq ediblər. Maşını bankın razılığı ilə Aqşin Camalova satanda kredit müqaviləsini onun adına rəsmiləşdirməli idilər. Bunun əvəzində isə mənimlə bağlanan 21 iyun 2013-cü il tarixli kredit müqaviləsinə 22 aprel 2015-ci il tarixli 1 nömrəli əlavə razılıq, həmçinin maşını alan Akşin Camalovla 28 avqust 2015-ci il tarixdə zaminlik müqaviləsi bağlayıblar. Məni isə kredit müqaviləsində borclu kimi saxlayıblar!"

İmzalar saxtalaşdırılıb, maşını Gürcüstana keçirib satıblar.

N.Əliyev-Kəngərli deyir ki, maşını alanda bank ondan hər hansı bir zamin tələb etməyib: "Belə olan halda mənimlə hər hansı tanışlığı, qohumluq əlaqəsi, iş birliyi və digər əlaqəsi olmayan Aqşin Camalovla 2 ildən sonra mənim xəbərim və məlumatım olmadan mövcud müqavilələr üzrə zaminlik müqaviləsi bağlaması qanunsuz və əsassızdır. Üstəlik sənədlərdə imzalar da saxtalaşdırılıb. Nəsimi rayon məhkəməsinə də müraciət etmişik. Maşının saxlanılması üçün də polisə müraciət etmişik. Bizə məlumat verilib ki, maşın sonuncu dəfə Gürcüstan sərhəddinə yaxın ərazidə nəzarət kameralarına düşüb. Ehtimalımız budur ki, maşını Gürcüstan ərazisinə keçiriblər. İstənilən halda maşına görə cavabdehlik Aqşin Camalovun üzərindədir. O bizdən gizlənir. Telefon zənglərimizə cavab vermir. Bu adam nazirin qardaşı oğludur deyə mənə qarşı belə saxtakarlıq olunmalıdır? Hüquq mühafizə orqanlarından tələb edirəm ki, Aqşin Camalovun yerini müəyyən edib məhkəmədə cavab verməsini təmin etsinlər".

**P.S.** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

❑ E.MƏMMƏDƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017



# Avropadan Bakıya mühüm jest - savaş haqqımız təsbit edildi

## Ərazi bütövlüyümüzə dəstəyin ardınca Brüsseldən Qarabağla bağlı xəbərdarlıq da gəldi - işğalçı rejimə zərbə; **politoloq:** "Azərbaycan istəyinə nail oldu..."

**Brüsseldə Avropa Birliyinin (AB) "Şərq Tərəfdaşlığı" sammiti başa çatdı. Azərbaycan prezidenti İlham Əliyevin də qatıldığı sammitin yekun bəyannaməsində ölkəmiz də daxil, bütün tərəfdaş ölkələrin ərazi bütövlüyünün toxunulmazlığı bir daha təsbit edildi. Erməni tərəfinin cəhdlərinə rəğmən, sənəddə məhz Azərbaycanı qane edən yanaşma əksini tapdı. Təşkilat tərəfdaş ölkə kimi Azərbaycanın da ərazi bütövlüyünü və suverenliyini dəstəklədi.**



Bu, AB-nin Azərbaycana, Dağlıq Qarabağ probleminə yanaşmasında kifayət qədər mühüm jesti kimi yadda qalacaq. Hər necə olmasa, işğalçı tərəf ümidli idi ki, sənədə ərazi bütövlüyümüzü şübhə altına alacaq bəndin daxil edilməsinə nail olacaq. Söhbət sənədə Dağlıq Qarabağ erməniləri üçün "öz müqəddəratını təyinetmə" prinsipinin daxil edilməsindən gedirdi. Göründüyü kimi, düşmən tərəfin arzusu ürəyində qalıb.

"Brüssel sammitinin Azərbaycan üçün çox faydalı keçdiyini düşünürəm". Bu sözləri "Şərq Tərəfdaşlığı" sammitinin yekununu dəyərləndirən Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib. Birgə Bəyannamənin Qarabağ məsələsinə təsirinə gəldikdə, politoloq qeyd edib ki, Azərbaycan ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı mübarizədə öz istəyinə nail oldu və bu, Bakı üçün çox vacib idi. "Hesab edirəm ki, ən böyük uğur məhz bundan ibarətdir", - deyə o əlavə edib.

"Avropa bununla nümayiş etdirdi ki, o, dünyanın hər hansı bir nöqtəsində olan separatizmə qarşı mövqe sərgiləyir və separatizmin dirçəlməsinə imkan verməyəcək". Bu sözləri isə Axar.az-a politoloq Qabil Hüseynli Brüsseldə keçirilən "Şərq Tərəfdaşlığı" sammitində qəbul edilən Birgə Bəyannaməyə münasibət bildirərkən deyib. O bildirib ki, bu çox böyük, tarixi bir addım idi.

"Azərbaycan tərəfi bu sənədin təkmilləşdirilməsində iştirak edərək, orada olan lüzumsuz maddələrin çıxarılmasına nail oldu. Bütövlükdə dövlətlərin ərazi bütövlüyü prinsipi yekun bəyannamədə özünün hərtərəfli əksini tapdı. Azərbaycan bu müqaviləyə imza atmaqla, özünün gələcək uğurlarına böyük töhfə verdi. Bundan sonra Dağlıq Qarabağ probleminin həllində ciddi hüquqi baza formalaşdırmaq mümkün olacaq. Azərbaycan eyni zamanda Şərq Tərəfdaşlığı proqramına rəsmən qatıldı və bununla da bir sıra imtiyazlar və üstünlüklər əldə etdi", - deyə Hüseynli qeyd edib.

Politoloq onu da vurğulayıb ki, Azərbaycan özünün qərbyönümlü xarici siyasət xəttini bu imzanı atmaqla bir daha təsdiq etmiş olub: "Bundan sonra Azərbaycanın qarşısında yeni perspektivlər açılır. Bu müqaviləyə imza atmaqla Azərbaycan həm Avropa ölkələrinə vizasız gediş-gəliş məsələlərini tənzimləyəcək, həm də Avropa ilə imtiyazlı ticarət əlaqələrinin qurulmasında bir çox üstünlüklər əldə edəcək. Çünki indiyə qədər dövlət tərəfindən Avropadan yalnız lazım olan malların alınması və satılması həyata keçirilirdisə, bundan sonra gömrük rüsumlarının azaldılması nəticəsində Azərbaycanın ən modern və müasir texnologiyaları, sənaye, eləcə də ilkin tələbat məhsullarını əldə etməsi daha da asanlaşacaq. Bununla da Azərbaycan Qərb ölkələri ilə ticarət əlaqələrini xeyli artırmış olacaq". O, bu müqaviləni imzalamaqla, Azərbaycanın AB-yə, NATO-ya yolunun açılacağını da söyləyib.

*****

Bu arada Avropa Birliyi Azərbaycana Dağlıq Qarabağla bağlı ikinci pozitiv jestini də edib. Məlum olub ki, Avropa Komissiyasının Ticarət üzrə Baş direktorluğunun rəsmi internet səhifəsində bazara giriş haqqında məlumat bazasında AB şirkətlərinin Azərbaycanın işğal olunmuş ərazilərində kommersiya fəaliyyətinin yaradacağı məsuliyyət ilə bağlı xəbərdarlıq yerləşdirilib.

Xəbərdarlıqda deyilir: "Azərbaycan qanunvericiliyinə əsasən Dağlıq Qarabağ və/və ya ətraf ərazilərdə birbaşa və ya filialları vasitəsilə kommersiya fəaliyyəti göstərən Avropa Birliyi şirkətləri mülki və cinayət məsuliyyətinə cəlb olunma riski daşıyır. Bu cür fəaliyyət Azərbaycanda həmin fəaliyyəti aparan fərdlərə və müvafiq biznes barəsində cinayət təqibi və ya digər hüquqi tədbirlərin görülməsi ilə nəticələnə bilər; həmçinin gələcəkdə Azərbaycana səfər etmə imkanına təsir edə bilər".

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev haqlı olaraq, bu xəbərdarlıq mətnindəki Azərbaycan qanunvericiliyinə istinad edilməsinin işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlar üzərində Azərbaycanın yurisdiksiyasının tanınması anlamına gəldiyini deyib. Onun sözlərinə görə, Avropa Komissiyasının bu xəbərdarlığı AB-nin fiziki və hüquqi şəxslərinin işğal olunmuş ərazilərdə qeyri-qanuni fəaliyyətinin qarşısının alınması ilə bağlı Azərbaycanın legitim tələblərinin yerinə yetirilməsi istiqamətində atılmış ilkin addımdır.

XİN sözçüsü bunu da xatırladıb ki, Ermənistan-Azərbaycan münaqişəsi kontekstində AB tərəfindən Azərbaycanla bağlı siyasi qərarlar qəbul edilərkən AB-nin Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsinin (EUSR) ofisinin rəyi əsas götürülür. EUSR öz fəaliyyətində Aİ Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinə (AB-yə üzv ölkələrinin səfirləri) hesabat verir və ondan tövsiyələr alır. "Bu isə o deməkdir ki, harada dərc olunmasından asılı olmayaraq yuxarıdakı xəbərdarlığa bütün AB üzv ölkələri birmənalı şəkildə riayət etməlidir. Əcnəbi hüquqi və fiziki şəxslərin işğal olunmuş ərazilərdə qeyri-qanuni iqtisadi-ticari fəaliyyətindən çəkindərilməsinin vacibliyi ilə bağlı ölkəmizin üzv olduğu Avropa təsisatlarında aparılan müzakirələr zamanı yuxarıdakı xəbərdarlıqdan istifadə edilməsi prinsipial mövqeyimizin irəlilədilməsi istiqamətində yardımçı rol oynaya bilər", - deyə Hikmət Hacıyev qeyd edib.

Bəzi məlumlara görə, işğal altındakı Dağlıq Qarabağda qanunsuz biznes fəaliyyəti göstərən şirkətlər əsasən Fransaya aiddir. Fransa isə AB-nin aparıcı dövlətlərindən biri, üstəlik, vasitəçi ölkədir - ATƏT-in Minsk Qrupunun həmsədridir. Deməli, xəbərdarlıq ilk növbədə ona ünvanlanıb. Bəs nəticə çıxarılacaqmı? Bunu yəqin ki, zaman göstərəcək. Yeri gəlmişkən, bu günlərdə Dağlıq Qarabağdakı kriminal rejimin başçısı Bako Saakyan başının dəstəsi ilə Fransada olub, görüşlər keçirib, işğal rejimini daha da möhkəmlətmək üçün orada ianələr toplayıb. Rəsmi Paris isə bu qanunsuzluqlara faktiki olaraq, reaksiya verməyib.

*****

Ötən həftəsonu AB-nin Azərbaycanla bağlı qeyd etdiyimiz iki mühüm qərarı Azərbaycan diplomatiyasının nəfinə yazıla bilər. Bu, həmçinin təcavüzkara aydın mesajdır ki, öz radikal mövqeyindən əl çəkməzsə, davamlı sülhə və iqtisadi inkişafa nail ola bilməyəcək, işğal altındakı Dağlıq Qarabağ bölgəsi də "qara dəlik" kimi dünyaya inteqrasiya olunmayacaq - Ermənistan AB ilə çərçivə sazişi imzalasa belə.

Ən önəmlisi odur ki, Avropa bununla Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa eləmək üçün son variant olaraq hərb yoluna əl atmaq haqqını da tanıyır. Bu isə həm də işğalçı Ermənistana xəbərdarlıqdır. O Ermənistan ki, orada blokada şəraitinin məntiqi diktəsi olaraq əhalinin iqtisadi durumu və dolanışığı ilbəil daha da ağırlaşır. Bunu erməni iqtisadçı ekspertləri də etiraf edirlər.

"Ermənistanda 2018-ci ildə vətəndaşların yaşayış səviyyəsi daha da ağırlaşacaq". Ölkənin tanınmış iqtisadçısı Vilen Xaçatryan 2018-ci il üçün nəzərdə tutulun dövlət büdcəsinə münasibət bildirərkən belə deyib (Report). Onun sözlərinə görə, mövcud durumda müəyyən edilən büdcə siyasəti həyata keçirilməlidir.

"Məsələn, inflyasiya varsa, təqaüdlər və maaş, eləcə də əhalinin aztəminatlı təbəqəsinin sosial yardımları artırılmalıdır. Bunların heç birinə Ermənistanda əməl edilmir. İndeksasiyanın tətbiq edilməməsi isə 2018-ci ildə ölkə əhalisinin yaşayış səviyyəsini ağırlaşdıracaq, alıcılıq qabiliyyəti aşağı düşəcək. Bu isə öz növbəsində deflyasiya yaradacaq", - deyə o qeyd edib.

Aydındır ki, erməni iqtisadçının söylədikləri səbəblər yox, nəticələr kateqoriyasına aiddir. Nədən ki, əsas səbəb həlli uzanan Qarabağ məsələsidir. Konfliktin nizamlanması uzandıqca Ermənistanın blokadası da davam edəcək - burası şəkk-şübhəsizdir. Demək, işğalçı ölkənin iqtisadi, demoqrafik durumu da pisləşməkdə davam edəcək, ölkədən kütləvi köç dayanmayacaq, işğalçı ordu daha şərt şəkildə çağırışçı problemi yaşayacaq.

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

# Ərdoğan-Tramp danışığı bölgədəki vəziyyəti dəyişə bilər

**Ötən həftə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla ABŞ prezidenti Donald Tramp arasında telefon danışığı olub. "Anadolu" agentliyinin məlumatına görə, Ərdoğan əvvəlcə ABŞ liderini Soçi sammiti barədə məlumatlandırıb. Prezidentlər daha sonra telefon danışığı zamanı Suriya böhranını, bölgədəki vəziyyəti və ikitərəfli münasibətləri müzakirə ediblər.**

## Politoloq: "Bölgədə bir tənəffüs elan edilsə də, əslində yeni gərginlik üçün ciddi surətdə hazırlıq gedir"



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu prezidentlərin telefon danışığı ilə bağlı mətbuata açıqlamasında bildirib ki, Ərdoğan ABŞ-ın YPG-yə silah verməsi ilə bağlı narahatlığını Trampa çatdırıb. ABŞ prezidenti qəti şəkildə deyib ki, bundan sonra YPG-yə silah verilməyəcək.

Xatırladaq ki, ABŞ və Türkiyə arasında bu mövzuda danışıqlar daha öncə də aparılsa da nəticəsiz qalmışdı. Elə bu ilin may ayında Ərdoğanın ABŞ-a səfəri zamanı müzakirə edilən mövzulardan biri də ABŞ-ın Suriyada döyüşən kürdlərə silah verməsi məsələsi idi. İki ölkə arasında münasibətlərin korlanmasına da səbəb kimi əsasən ABŞ-ın Suriyada kürdlərə silah verməsi və FETÖ lideri Fətullah Gülənin ekstradisiya edilməməsi göstərilirdi. Ehtimal edilirdi ki, Tramp prezident seçildikdən sonra Obamanın xarici siyasətdə buraxdığı səhvləri təkrar etməyəcək. Türkiyə prezidentinin may ayında ABŞ-a səfər etməsi də bu ümidlə bağlı idi. Lakin prezidentlər arasında may görüşü istənilən effekti vermədi.

Bəs, ABŞ indi sözünü tutacaqmı? Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirdi ki, bu dəfə Amerika sözünü tutmaq məcburiyyətində qalacaq: "Çünki bölgədə vəziyyət təhlükəli bir istiqamət alıb. Yəni kürdlər silahlanır, təşkilatlanır və demək olar ki, Suriyanın yeni-yeni ərazilərini ilhaq edirlər. Artıq onlar Suriyanın federallaşmasını da tələb etməyə başlayıblar. Özləri içərilərində dövlət atributlarını müzakirə edib, hətta onların bəzilərini yaratmağa başlayıblar. Bayraq var idi, gerb və himn üzərində isə iş gedir. Nəticə etibarilə söyləyə bilərik ki, eynilə İraqın şimalında Bərzaninin Səddam Hüseyn devrildikdən sonra etdiklərini, bunlar təkrarlamağa başlayıblar. Xaosdan, hakimiyyətsizlikdən və Suriyanın zəifliyindən istifadə edərək, dövlətçilik atributlarını yaradırlar. Bundan əlavə, onlar silahlı qüvvələr də formalaşdırırlar. Təsəvvür edin ki, Suriya kürdlərinin 60 min nəfərə yaxın silahlı üzvü var. Ən təhlükəlisi odur ki, PKK-da buraya ayaq açmağa başlayıb. Onsuz da PYD-nin silahlı qanadı olan YPG, PKK ilə daha öncədən əlaqə qurmuşdu. İndi isə bu əlaqələr daha da intensivləşməyə başlayıb. ABŞ da guya İŞİD-ə qarşı mübarizə aparmaları üçün oraya silah göndərir. Əslində isə silahlar lazım olduğundan bir neçə qat çoxdur. Oraya hətta zirehli texnika göndərilməsi barədə məlumatlar var. Bütün bunlar isə bölgəni çox təhlükəli bir məqama gətirib çıxarır. Tramp bu proseslərdə o qədər də yetkin adam olmasa da Amerika dövləti və onun Mərkəzi Kəşfiyyat İdarəsi bölgədə təhlükə mənbəyi yaratdıqlarının fərqində olmalıdırlar. Bilməlidirlər ki, bu gün onların YPG və PYD-yə verdiyi silahlar sabah hara istiqamətlənə bilər və bölgədə hansı qanlı toqquşmalar yaranar".

Politoloqunn sözlərinə görə, Amerika silah verən zaman dəfələrlə bildirib ki, İŞİD üzərində əməliyyatlar bitdikdən sonra onlar geri alınacaq: "Lakin hələ ki, geri almaq fikrində deyillər. Bir sözlə Suriya kürdləri, İraq kürdlərindən daha təhlükəli qüvvəyə çevrilməkdədir. Bu, təbii ki, ilk növbədə Türkiyənin milli təhlükəsizliyi üçün ciddi çətinliklər yaratmaqdadır. Kürdlər bu bölgədə Amerikanın silahlı bazasının yaradılması istiqamətində də faktiki cəhdlər ediblər. Türkiyə yanlışlıqla İncirlik Hərbi Hava bazasından təzyiq vasitəsi kimi istifadə etdikdən sonra Almaniya öz hərbi təyyarələrini və silahlı qüvvələrini oradan çıxardı. Amerika isə hazırda İncirliyə alternativ, Suriya ərazisində kürdlərin yaşadığı yerlərdə hərbi baza statuslu bir neçə təyyarə bazası tikməyə meyllidir. Artıq bu işin bünövrəsini də qoyublar. Bu məqsədlə də belə görünür ki, onların silahları yığışdırmaq fikirləri yoxdur. Heç yığışdıra da bilməyəcəklər. Silahların bir qismi artıq PKK-nın əlindədir. Türkiyə ərazisində əməliyyatlar zamanı öldürülən PKK-çılardan götürülən silahlar bunu sübut edir. Göründüyü kimi, bölgədə bir tənəffüs elan edilsə də, əslində yeni gərginlik üçün ciddi surətdə hazırlıq gedir. Bu gərginliyin qarşısını siyasilər almalıdırlar. Onlar yol verdikləri səhvlərin üzərində düşünməli və bunları aradan qaldırmaq üçün təcili tədbirlər görməlidirlər. Əks təqdirdə, bölgə yenidən qanlı savaş meydanına çevriləcək. Artıq bunun ilk siqnalları da gəlir. Səudiyyə Ərəbistanı bir yandan, İsrail isə digər yandan hədələyir. Nə qədər qəribə görünsə də Səudiyyə Ərəbistanı ilə İsrailin səsi eyni mənbədən gəlir və eyni istiqamətə yönəlir. Digər tərəfdən isə Rusiya, Türkiyə və İranın "Üçlər ittifaqı"na bənzər ittifaq formalaşdırması nəticə etibarilə ona işlədi ki, Suriyada Rusiya təkbaşına söz sahibinə çevrildi. İran da müəyyən şeylər əldə edə bildi. Məsələn, İran Dəməşq ətrafında hərbi hava bazası yaradır və İsrail də bundan çox əndişələnir. Rusiya da həm Bəşər Əsədi qoruyub saxlayır, həm də orada hərbi bazalar yaradır. Bu ittifaq yaranmasında Türkiyə öncül rol oynasa da Türkiyənin nə qazandığını hələ ki, axtarıb tapa bilmirəm. Üstəlik, Türkiyə Amerika tərəfindən silahlandırılmış kürdlərin timsalında özünə yeni bir düşmən qazandı. Kürdlər də Amerikaya yaltaqlanaraq, yaşadıqları bölgələrdə İncirliyə alternativ olacaq Amerika hərbi bazasının bünövrəsinə qoyublar. Burada Amerikanın möhkəmlənməsi üçün şərait yaratmağa çalışırlar. Bir sözlə, bölgədə problemlər həll edilməyib və istənilən vaxt qarışıqlıq yarana bilər".

❑ Əli RAİS

# Misirdə terror dəhşəti: İŞİD-in gücü, yoxsa siyasi sifariş?

## Bu terror təşkilatının artıq zəiflədiyi söylənilsə də, baş verənlər əksini göstərir; ekspertlərə görə, ortada fərqli siyasi məqamlar da var...



**Misirin Sinay yarımadasındakı Ravza məscidində baş verən terror hadisəsində ölənlərin sayı artıq 310-a çatıb. Getdikcə də bu rəqəm artır. Məlumatlara görə, ölənlər arasında 30 uşaq da var. Yaralı sayının isə 128 olduğu bildirilir.**

Misir ordusunun sözçüsü Tamir ər-Rufai hadisədən sonra hava qüvvələrinin terrorçuların yerini müəyyənləşdirdiyini və keçirilən əməliyyatda bir neçəsinin zərərsizləşdirildiyini açıqlayıb. Misirin rəsmi xəbər agentliyi olan "MENA"nın yaydığı məlumata görə, məscidə hücum edərək kütləvi qırğın törədən terrorçuların əlində İŞİD-in bayraqları olub.

Araşdırma zamanı məlum olub ki, terrorçuların sayı 30 nəfərmiş. Hadisə yerinə 5 avtomobildə gələn terrorçular məscidin qapısı və pəncərələri ilə üzbəüz mövqe tutaraq gəlib-gedənlərə atəş açmağa başlayıblar. Bəzi terrorçular maska taxıblar, bəziləri isə uzun saç və saqqalları ilə diqqət çəkib. Yaşları 25-30 olduğu güman edilən terrorçular kamuflyaj rəngində şalvar və qara mayka geyiblər. Teraktla bağlı ölkədə 3 günlük matəm elan edilib.

Hadisə sonrası Misir prezidenti Əbdülfəttah əs-Sisi müdafiə, daxili işlər və təhlükəsizlik nazirləri ilə müşavirə keçirib. Bildirib ki, ölkənin ordusu və polisi qətlə yetirilən insanların intiqamını alacaq. Bu faciəni ölkə tarixi boyu ən qanlı terror hadisəsi adlandırırlar. Məlumata görə, Sinay yarımadasında "Şəhidlər üçün qisas" adlı antiterror əməliyyatı başlayıb. Təhlükəsizlik qüvvələri bütün əsas yolları bağlayıb, maşınlar yoxlanılır. Xüsusi əməliyyat nəticəsində Misir hərbi hava qüvvələri terrorçuların yarımadanın mərkəzində yerləşən Er-Risan kəndindəki mövqelərinə hava zərbələri endirib. Pilotsuz uçan aparatlar səhra ərazisində silahlıların olduğu iki avtomobili atəşə tutub. 30 silahlı terrorçu məhv edilib.

Ümumilikdə isə Misirin Sinay yarımadasında son 3 ildə İŞİD terrorçuları tərəfindən bir çox qanlı teraktlar törədilib. Terrorçular bölgədə təkcə məscidlərə deyil, həm də xristian kilsələrinə də hücum edirlər. Ancaq bu günə qədər Sinay yarımadasındakı İŞİD qüvvələri bu miqyasda dinc əhalini hədəfə alan terror aktı həyata keçirməyib. Ekspertlər bildirirlər ki, İŞİD Suriya və İraqda məğlub olub əlindəki torpaqları itirərək hər gün ağır zərbələr alır. Bu da məlumdur ki, Misir İŞİD-ə qarşı faktiki olaraq hərbi əməliyyatlarda iştirak etmir. Ona görə də İŞİD-in Misiri bu cür hədəfə alması anlaşılmaz olaraq qalıb. Məhz bu səbəbdən bir çox şərhçilər məsələnin siyasi səbəblərdən qaynaqlandığına və bir sifariş olmasına şübhə etmirlər. Onu da qeyd edək ki, Sinay yarımadası Misir üçün olduqca əhəmiyyətli ərazidir. Çünki bu yarımada mühüm enerji və iqtisadi, həmçinin siyasi əhəmiyyəti olan bölgə hesab edilir.

Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan təhlükəsizlik üzrə ekspert Arzu Nağıyev bildirdi ki, hərbiçilərin prezident seçilməsinə bir sıra dövlət və qurumlar çox da müsbət yanaşmırlar: "Eləcə də Misir prezidenti Əbdülfəttah əs-Sisi də keçmiş hərbiçidir. Misirdə baş verən terror, demək olar ki, bu ölkənin tarixində ən acınacaqlı hadisəyə döndü. 300-dən çox insanın həlak olması və yaralanması hadisənin böyük miqyaslı terror aktı olmasını deməyə əsas verir. Çox maraqlıdır ki, burada seçilən hədəf də fərqlidir. Məhz sufi məscidinə hücum ediblər ki, artıq bura da süni, şiə və digər məsələlərin qabardığı nöqtədir. Eyni zamanda bir sıra müşahidəçilər də söyləyirlər ki, hücum edənlərin əllərində İŞİD-in bayraqları olub. Bu isə İŞİD-in tam məhv olmadığını sərgiləmək üçün atılan addımlardır. Bildirirlər ki, İŞİD var və öz fəaliyyətini davam etdirir, terror hadisələrini də törətməkdə israrlıdır. Pilotsuz silahlardan istifadə edilərək terrorçuların məhv edilməsi isə artıq bu ərazidə hələ də külli miqdarda silahın olmasını bir daha gündəmə gətirdi. Son zamanlar Misirdə sakitliyin bərqərar olması istiqamətində müvafiq addımlar atılırdı. Burada bir məsələ də məhz İslam həmrəyliyi məsələsi idi. Nə üçün Ərəb Liqası buna heç bir reaksiya vermədi - baxmayaraq ki, Qərb, Avropa eyni zamanda Azərbaycan da hadisə ilə bağlı fikrini bildirib, terroru lənətlədi. Lakin Ərəb Liqası dövlətləri konkret bir addım atmaqdan sanki çəkinirlər. Bütün bunlar göstərir ki, regionda problemlər davam edir və Misir də boşuna hədəf seçilməyib. Bu gün demək olar ki, ərəb inqilablarından sonra ən çox inkişaf edən dövlətlərdən biri Misir idi. Misir həm də son zamanlar müstəqil siyasət yürütməyə başlamışdı. Belə problemlərin olması göstərir ki, İŞİD və bu terror qruplaşmasına biyət edən təşkilatlar özlərinin varlıqlarını sübut etmək üçün hər cür addım atmağa hazırdırlar".

Ekspertə görə, İŞİD adi sadəcə olaraq vasitədir: "İŞİD yeni yarananda hətta bunu dövlət kimi qələmə vermişdilər. Göstərirdilər ki, dövlət var və bunun da Rakkada paytaxtı mövcuddur. İŞİD artıq bir vasitədir və adından istifadə olunur. Hətta İndoneziya və digər ölkələrdə qruplaşmalar var ki, İŞİD-in yolunu gedirlər. Onların adları isə başqadır. Bu kimi terror hadisələrində də göstərirlər ki, İŞİD mövcuddur və ona biyət edənlər də hələ də fəaliyyətdədir".

Gözlənilir ki, Misir prezidenti terrorçulara qarşı geniş miqyaslı hərbi əməliyyatlara başlayacaq. Bu əməliyyat əsnasında isə Misir terrorunun əsl hədəfinin nə olduğu da məlum olacaq.

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

**Noyabrın 22-də jurnalist Natiq Qədimovun 41 yaşında infarktdan dünyasını dəyişməsi media ictimaiyyətini kədərə qərq etməklə yanaşı, həm də cəmiyyət üçün mühüm siqnal oldu. O siqnal isə bundan ibarətdir ki, son zamanlar infarktdan ölümlər gəncləşib.**



# "Gəncləşən" infarkt: qəfil ölümün yaxınlaşdığını necə bilməli - 5 risk faktoru

## **Kardioloq İdris Xəlilov:** "Ən təhlükəli yaş həddi kişilərdə 35-50, qadınlarda isə 45-55 yaş arasıdır"

Deməli, ürəklə zarafat etmək olmaz. Məsələ ondadır ki, heç vaxt sağlamlığından şikayət etməyən, həkimə yolu düşməyən insan belə bir neçə saniyənin içində həyata gözünü yuma bilər. Bu kimi halların qarşısının alınması üçünsə, insanların ürək xəstəlikləri və infarktın əlamətləri ilə bağlı maarifləndirilməsinə və müəyyən yaş həddindən sonra vaxtaşırı müayinə olunmasına ehtiyac var.

İnfarktdan necə xilas olmaq olar? Onun ilkin əlamətləri hansılardır? Hansı yaşdan sonra bu təhlükə daha da artır? Vaxtında aşkarlanarsa, infarkt riskindən xilas olmaq mümkündürmü? Hazırda hər kəsi maraqlandıran bu sualları **tanınmış kardioloq, professor İdris Xəlilov** cavablandırdı.

40 ilə yaxındır ki, bu sahədə çalışan həkim yeganə çıxış yolu kimi, insanların vaxtaşırı müayinədən keçməsini tövsiyə edir: "Adətən deyirlər ki, tam sağlam insan bir anın içində infarktdan dünyasını dəyişdi. Mən düşünmürəm ki, bu insanlar sağlam olub. Onları biz vaxtında müayinə etsəydik, yəqin ki, hansısa problemlər aşkarlaya bilərdik. İndi elə bir dövrdə yaşayırıq ki, ürək xəstəliklərinin diaqnostikasında çox böyük irəliləyişlər var. İnfarktın gəncləşməsi ilə bağlı onu deyə bilərəm ki, bu hər zaman olub. Lakin əvvəllər mətbuatda bu qədər geniş işıqlandırılmırdı deyə, cəmiyyətin məlumatı olmurdu. Dünyanın hər yerində, hər yaşda infarkt xəstəsinə rast gəlmək mümkündür. 1984-cü ildə mənim xəstəm olub ki, 29 yaşında infarkt keçirib. Əgər insanlar 35 yaşından sonra ildə ən azı bir dəfə profilaktik müayinəyə getsələr və ya hər hansı simptomu olan insan həkimə müraciət etsə, o zaman onda olan infarkt və qəfləti ölüm riski və digər əlamətləri biz aşkarlaya bilərik. İnsanlarımız isə bu müayinələrə getmirlər. Bizim praktikamızda elə hal olmayıb ki, xəstədə risklər aşkarlandıqdan sonra müalicə olunmasın və həyatını itirsin.



Yalnız o ola bilər ki, xəstə düzgün həkimə getmir və başqa bir sahənin həkiminə müraciət edir. Ümumiyyətlə, döş qəfəsində hər hansı diskomfort varsa, infarkt və qəfil ölümü inkar etməmək, qarın nahiyəsində olacaqsa, apendisiti inkar etməmək lazımdır".

Kardioloqun sözlərinə görə, ətrafların keyiməsi, tutulması, sinədə ağrıların olması və sair də bir simptomdur: "İnsan heç vaxt birdən-birə infarkt ola bilməz. Adətən öncədən onun müəyyən əlamətləri olur. Hər 10 nəfərdən birində mümkündür ki, heç bir əlamət olmadan qəfil infarkt olsun. Qalan bütün hallarda ağrı və digər simptomlar olur, lakin bu simptomlar xəstəni çaşdırır. Məsələn, barmağı ağrıya bilər, bədəninin bir tərəfi ağrıya bilər. Atipik və tipik simptomlar ola bilər. Üç növ xəstəmiz olur. Birincilərdə heç bir simptom yoxdur, ikincilərdə 80 faiz hallarda klassik simptomlar var. Üçüncülərdə isə atipik simptomlar var, məsələn, xəstə deyə bilər ki, təngnəfəs olur. Həmin xəstələr kardioloqa yaxınlaşsa, mümkün deyil ki, onun xəstəliyini tapa bilməsinlər".

Kardioloq onu da vurğuladı ki, infarkt üçün ən təhlükəli yaş həddi kişilərdə 35-50 yaş arası, qadınlarda isə 45-55 yaş arasıdır: "Qadınlarda infarkt riski 10 il geridədir. İnfarkt insanlarda 95 faiz hallarda damar darlığının olması səbəbindən baş verir. Damar darlığına görə Azərbaycanda hər gün yüzlərlə xəstəyə stend qoyulur. Stend qoyulduqdan sonra o damar darlığı aradan qalxır. Cavan insanlarda problemin tam aradan qalxması mümkündür, ancaq 70-80 yaşlı insanlarda bir qədər problem yaşana bilər. Ola bilər ki, yaşlılara kömək etmək bir qədər çətin olsun. Ancaq cavan insanlarda birmənalı olaraq, problemi tam həll etmək mümkündür".

İ.Xəlilov onu da vurğuladı ki, ürək xəstəliklərinin ortaya çıxmasında 4-5 ciddi risk faktoru var: "Onlardan birincisi genetik faktordur, ikincisi stressdir, üçüncüsü insanın anormal həyat tərzidir. əgər insan hər gün yüksək dozada spirtli işçi içirsə və ya gündə 2-3 qutu siqaret çəkirsə, bu təbii olaraq onun səhhətində bir problem yaradacaq. Həmçinin oturaq həyat tərzi də zərərli faktorlardan biridir. İnsan normal həyat tərzi yaşamalı, normal yuxu rejimi keçirməlidir. Ancaq istənilən halda əsas çıxış yolu insanın vaxtında müayinə olunması, ən azından müəyyən simptomları hiss etdikdən sonra müayinə olunmasıdır. Bu zaman xəstəliyin müalicəsində çox böyük uğur əldə etmək olar. Ölüm faktlarını biz də araşdırırıq, məlum olur ki, onların çoxu ümumiyyətlə, həkimə getməyib. Bu günlərdə bir xəstəni mən müayinə etdim. Şikayəti o idi ki, yatanda nəfəsi kəsilir. Biz ona aparat qoyduq və məlum oldu ki, gecələr bunun ürək döyüntüsünün sayı 15-ə enir. Bu hər zaman qəfil ölüm deməkdir. Biz ona stimulyator aparatı qoyduq və həyatını xilas elədik. Ancaq müayinəyə gəlməsəydi, qəfil öləcəkdi. Bütün qəfil ölümlərin arxasında ciddi səbəblər var. Yoxlanın və əmin olun ki, heç bir problem yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

---

# Harya gedersən... hökumət bilermi?



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**Sən demə, Vüsal Rzayev "Ayə, harya gedersənq, ayə" oxuyana qədər hamımız Motsart dinləyirdik. Məktəbə, universitetə qulaqlarında qulaqcıqla, dünyanı unudaraq gedən uşaqlar sən demə, o telefonlarına klassik muqisi, Üzeyir Hacıbəyovun əsərlərini köçürüblərmiş. Evlərində axşam yeməkləri də bu musiqinin sədaları altında yeyilirmiş sən demə. İndi bu qardaş çıxdı, o asi üslubunda oxuyaraq bunların bütün musiqi zövqlərini korladı...**

Bu günə qədər Üzeyirə (cır səsli olana) qulaq asıb, Elzanın şeirləri ilə əylənənlər bunlar deyildi sanki. Kitab mağazalarının yanından sürətlə ötən, girəndə də ancaq "sarı ədəbiyyat" nümunələrilə maraqlanan, kriminalı gözlərinə təpən uzaq Afrika diyarlarındakılardır elə bil. Halbuki rok musiqisi hər zaman olub da, olacaq da. Açın Amerika telekanallarını, gedin Qərb ölkələrinə. Çox normal tərz deyilmi? Cırıq şalvarda, qulağında sırğa... Yəni, dünyanın 8-ci möcüzəsi ilə falan qarşı-qarşıya deyilik. O zaman bu təəccüb, bu isterika niyə?

Məni bu məsələdə ən çox təsirləndirən nədir, bilirsizmi? Bu mahnını ifa edən gəncin Pantomim Teatrının aktyoru olması. Bəlkə kimlərsə ömründə bu teatrın qapısını açmayıblar. Amma ora olduqca istedadlı aktyorların bir araya gəldiyi məkandır. Baxmayın ordakı aktyorların pul xətrinə tum reklamlarında çəkilməsinə, şou proqramlarında iştirak etməsinə, həmin məkanda gerçək sənət icra olunur. Zamanında dəfələrlə ora tamaşaçı kimi getdiyimdən belə əminliklə yazıram.

İndi nə acı ki, bu cür gözəl bir teatrın aktyorunu biz belə situasiyada tanıdıq. Elzanın "Tikim sizin ağzınızı" sözləri günlərlə ağzımızın saqqınıza çevrildiyi kimi, Vüsalın mahnısının da bir neçə günlük ömrü var. Biz xalq olaraq gerçək sənətçiləri də bəzən qalmaqallar, ucuz söhbətlər, yüngül mövzularla tanımağa meylliyik. Elza Seyidcahanın səsi əslində çox gözəldir, mən onun ilk albomunu 2000-ci illərin əvvəllərində dinləmişəm. Amma biz cəmiyyət olaraq onu belə şeirciyəzlərlə tanıdıq. Nəyi yaxşıdır ki?

Nə təhər hay-həşir saldılarsa, mahnının yayımlandığı Mədəniyyət Kanalından da həyəcanlı açıqlama gəldi. AzTV-nin nəzdində olan Mədəniyyət kanalının Müasir Azərbaycan Gənci (MAG) adlı verilişi ilə bağlı MZ productionun rəhbəri təkzib verdi. Üzlüfət Qasımova adlı xanımın açıqlamasından öyrəndik ki, sözügedən kadrlar AzTV-də getməyib: "Sözügedən proqram çəkiləndən sonra biz Vüsal Rzasoyun mahnılarını dinlədik, daha sonra qərara aldıq ki, AzTV-yə uyğun deyil. Bu səbəbdən həmin görüntünü efirdə yayımlamadıq, MAG-ın səhifəsində paylaşmaqla kifayətləndik. Sözügedən videonu 20 gün əvvəl səhifədə yaymışıq".

Açığını deyim ki, bu açıqlamaya qədər içimdə AzTV-yə qarşı yüngülvari bir simpatiya yaranmışdı. Hərdən "Azərbaycan" qəzetində bəzi məmurlarla bağlı şok xarakterli yazılar kimi. Yəqin izləmisiz, həmin yazılarda hərdən-hərdən müxalifət qəzetinin, saytının yazmadığı informasiyalar, dəhşətli ifşalar olur. Üstəlik, əksəriyyətinin həqiqiliyi də şübhə doğurmur. Çünki birbaşa "mətbəx"dən gəlir. İndi Vüsal Rzayev məsələsində də insanı sevindirən bir olay vardı: AzTV-nin nəhayət toy müğənnilərindən, "qəstüm-şalvarlı", ütülü, ənlikli-kirşanlı manıslardan qurtulub, roka (azad musiqiyə) yer ayıracağına sevinmişdik. Məşhur məsəllə desək, pişik olalı bir siçan tutma məsələsi... AzTV-nin bu günə qədər edib-edə biləcəyi bir yaxşı hərəkət olacaqdı, amma heyhat...

Odur ki, isterikaya da, hay-küyə də gərək yoxdu. Belə mahnılar, "şeir"lər zaman-zaman cəmiyyətin qulağına qar suyu qaçırmaq, onu qıdıqlamaq üçündür. Kim nə qədər oyaqdır deyə. Şükür ki, o qədər də qış yuxusuna getməmişik. Hərdən belə səsləri dinləyib, "harya getdiyimizi" görürük.

Amma qorxuram, bir azdan hökumət bu cür mahnılara da yasaq qoyar. Oğru dünyasından yazdığı üçün mətbuata göz ağardan iqtidar belə ifalarla bağlı yazmağı qadağan edə bilər. "Cəmiyyətin əhvalını korladığı" üçün, məsələn. Zarafat deyil, ölkədə mühacir dalğası var. Başını götürən qaçır. Yetkinlik yaşına çatmayan qızlar evdən gedir. Üstəlik "anası bilmədən". Necə deyərlər, bu mahnıda bir siyasi yük var. Mesaja bax bir: harya gedersən, anan bilermi... Nırç... Ciddi söhbətdi...

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

# Rusiyada tüğyan edən QİÇS Azərbaycana da təhlükədir - SOS

## Adil Qeybulla: "Ölkəyə bu xəstəlik ən çox Rusiyadan daxil olur"

**Rusiyada hər gün 80 insan QİÇS xəstəliyindən dünyasını dəyişir. Bu cür qalmaqallı məlumat bu günlərdə İsveçrənin "Neue Zuercher Zeitung" qəzetində dərc edilib.**

Məqalədə qeyd olunur ki, bir çox inkişaf etmiş ölkələrdən fərqli olaraq, Rusiyada vəziyyət nəzarətdən çıxaraq fəlakət dərəcəsinə gəlib çatıb. Məqalə müəllifinin məsələ ilə bağlı gətirdiyi rəqəmlər həqiqətən olduqca acınacaqlıdır: "Rusiyada əhalinin 1%-i QİÇS-ə yoluxub. Bu bir milyon adamdan çox deməkdir. 2017-ci ilin ilk yarısında QİÇS-dən 14631 adam ölüb. Bu, keçən ilin bütün dövründə eyni xəstəlikdən ölənlərin sayından 14% çoxdur. İnsanların bu cür sürətlə ölməsinə əsas səbəb onların vaxtında dərmanla təmin olunmaması və ya həkim tövsiyyələrinə qulaq asmamalarıdır".

Təbii ki, Azərbaycanın Rusiya ilə sərhəd ölkə olduğunu nəzərə alsaq yaranmış vəziyyətin ölkəmiz üçün də təhlükəli olduğunu qaçılmazdır. Ümumiyyətlə, son statistik məlumatlardan belə məlum olur ki, QİÇS xəstəliyi ölkəmizdə də getdikcə artmağa başlayır. Təkcə nikaha daxil olmaq istəyən 7 nəfərdə bu xəstəlik aşkar edilib. Ümumilikdə isə ölkədə nikaha daxil olmaq istəyənlərin icbari tibbi müayinəsi tətbiq olunduğu andan bu ilin iyul ayının sonuna qədər müayinədən keçən şəxslər arasında 247, 2017-ci ilin 9 ayı ərzində isə 84 nəfərdə QİÇS aşkarlanıb.




Beləliklə, Rusiyada xəstəliyin tüğyan etməsi ölkəmizdə də narahatlıqla qarşılanıb. Bəs Rusiyadakı xəstəliyin mövcud vəziyyəti ölkəmizə nə dərəcədə təsir göstərə bilər? Tibb elmləri doktoru, professor Adil Qeybulla mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb: "QİÇS xəstəliyi ilə bağlı müxtəlif dərmanlar var ki, onlar xəstəliyin inkişafını ləngidir və xəstənin ömrünü uzatmağa kömək göstərir. Amma xəstəliyin tam qarşısını alacaq vasitə yoxdur. Xəstəliyin ölkəmizdə dinamikasının artmasının bir çox səbəbləri var. Hazırda 3 milyondan çox azərbaycanlı xaricdə yaşayır ki, bunun da böyük əksəriyyəti Rusiyanın payına düşür. Çoxlu sayda azərbaycanlı Rusiyaya gediş-gəliş edir, yəni miqrasiya durumundadır. Onların arasında evlənənlər də, təsadüfi cinsi həyat yaşayanlar da var. Azərbaycana bu xəstəlik daha çox Rusiyadan daxil olur. Çünki qeyd etdiyim ki, azərbaycanlıların təmasları ordadır. Bundan başqa, xəstəliyin müalicə olunmayan növü Rusiya həbsxanalarında yayılmağa başlayıb. Təbii ki, ölkəmizdə də xəstəlik artmağa başlayıb və statistik məlumatlar real vəziyyəti əks etdirmir. Məsələ təsadüfi və məcburi tibbi müayinələr zaman aşkarlanan statistikadan gedir. Əgər ölkədə bütün əhali müayinədən keçsə əsl real vəziyyət ortaya çıxar. Tam əmin deyirəm ki, real rəqəmlər faktiki olan statistikanı xeyli üstələyər".

Adil Qeybulla xəstəliklə bağlı öz tövsiyələrini də bildirib: "İnsanların özləri diqqətli olmalı, qoruyuculardan istifadə etməli, təsadüfi cinsi əlaqələrdən çəkinməlidir. Qanla yoluxan xəstəlik olduğu üçün diş həkiminin müayinəsində, müxtəlif cərrahi prosedurlarda ehtiyatlı olmalıdır. Eyni zamanda, narkomanlar eyni iynədən istifadə etdikləri üçün xəstəlik daha çox yayılmağa başlayıb və sairə. Bəzən insanlar cahillikdən bu xəstəliyə yoluxur, bəzən isə iradələrindən asılı olmayaraq kimlər tərəfindənsə yoluxurlar. Yəni bütün bunlar üçün profilaktik tədbirlər görülməli, əhali maarifləndirilməlidir. Dünyada bu xəstəliyin qarşısını almaq üçün müxtəlif tədbirlər görülür. Ölkəmizdə isə sanki o insanlar taleyin ümidinə buraxılıb. Bu baxımdan ya praktik, ya da adekvat işlər görülmür".

❑ **Xalidə GƏRAY**



# Saatlıda pambıq əkən fermerin torpağını əlindən almaq istəyirlər - özbaşınalıq

## Rəhim İsmayılov: "16 ailəni işsiz, çörəksiz qoymaq istəyirlər"

**Saatlıda fermerin torpaq sahəsini əlindən almaq istəyirlər. Söhbət fermer Rəhim Talıbxan oğlu İsmayılovun torpaq sahəsindən gedir. Redaksiyamıza müraciət edən fermer deyib ki, 30 noyabr 2005-ci ildə Saatlının Sarıcalar kənd bələdiyyəsindən 35 illiyə 2.28 ha icarəyə torpaq alıb.**

Həmin torpaq sahəsində heyvandarlıqla məşğul olmaq üçün ferma tikib. Hazırda həmin fermada xırda və iri buynuzlu mal qaranın yetişdirilməsiylə məşğul olur. Fermer kimi kənd sakinlərindən 20 hektar əkinə tam yararsız pay torpağını pullarını ödəyib örüş yeri üçün alıb: "Aqronomlar da təsdiq edirlər ki, həmin torpaqlar əkinə tam yararsızdır. Ona görə yararsızdır ki, tərkibi natrio-hidro duzdan ibarətdir və yuyulsa da yararlı olması mümkün deyil. Amma mənim fəaliyyətimə Xanbala Babaşov əngəl olmağa başlayıb. Xanbala Babaşov Saatlı icra hakimyyətinin başçısının 1-ci müavini İlham Quliyevin yaxınıdır. İstəyirlər ki, mənə məxsus torpağın üzərindəki fermanı sökdürüb əlimdən alsınlar. Guya pambıq əkəcəklər. Amma orada pambıq əkilməsi mümkün deyil. Torpaq tam yararsızdır. Bunu özləri də bilirlər. Mütəxəssislər, aqronomlar deyirlər ki, bu torpaqda heç nə bitməyəcək, özünüzü yormayın. Xanbala Babaşov israr edir ki, nəyinizə lazımdır, mən əkəcəm. İcra başçısı Siraqəddin Cabbarov fermerlərə kömək etsə də, bu şəxslər işimizə mane olurlar. Əgər icra başçısı əraziyə nümayəndə göndərsə, dediklərimin həqiqət olduğunu biləcək".

Fermer deyir ki, dövlət başçısı İlham Əliyevin pambıqçılığın inkişafı ilə bağlı tapşırıqlarına uyğun olaraq o da 16 hektar torpaq sahəsində pambıq əkib: "Hazırda pambıq yığmaqla məşğulam. Xəstə, yaşlı adamam. Bunların təzyiqinə tab gətirə bilmədiyim üçün ölkə başçısı İlham Əliyevə, 1-ci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət etmişəm. İstəyirəm ki, İlham Quliyevə arxalanan Xanbala Babaşov yaxamdan əl çəksin. 16 ailəni bunlar işsiz, çörəksiz qoymaq istəyirlər. Xahiş edirəm bizə köməklik etsinlər".

P.S. Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Azərbaycan çaylarındakı vəziyyət açıqlandı

**Rayonlarda yağmurlu hava şəraitindən sonra respublika çaylarında sululuq səviyyəsi ilə bağlı son 10 gün üzrə keçirilən monitorinqin nəticələri açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Lent.az verilən məlumata görə, Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 130-140, Kiçik Qafqazın çaylarında 130-180, Lənkəran-Astara bölgəsi çaylarında 100-190, Naxçıvan MR çaylarında isə 170 faizini təşkil edir.**



Tranzit çaylarda hazırkı vəziyyətə gəlincə, son nəticəyə görə, Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 7 sm artım müşahidə olunub. Hazırda məntəqədə su sərfi 178 m3/s olmaqla ongünlük normanın 96 faizini təşkil edir. 2016-cı ildə isə bu rəqəm 215 m3/s olmaqla ongünlük normanın 116 faizini təşkil edib.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində dəyişiklik müşahidə olunmayıb. Hazırda məntəqədə su sərfi 42 m3/s olmaqla, ongünlük normanın 52 faizini təşkil edir. 2016-cı ildə isə bu göstərici 81 m3/s təşkil edərək ongünlük normanın 100 faizinə bərabər olub.

Kür çayının aşağı axınında vəziyyətə gəlincə, son nəticəyə görə, Kür çayının aşağı axınında suyun səviyyəsində əsasən mühüm dəyişiklik olunmayıb. Belə ki, Kür çayının Şirvan məntəqəsində 6 sm artım, Bankədə 14 sm azalma qeydə alınıb, lakin Surrada, Salyanda və Araz çayının Novruzlu məntəqəsində isə suyun səviyyəsində dəyişiklik müşahidə olunmayıb.

Hazırda Surra məntəqəsində suyun səviyyəsi 369 m (2016-cı il noyabrın 24-də 471 sm), Şirvanda 251 sm, Salyanda 208 sm (2016-cı il noyabrın 24-də 303 sm), Bankədə 199 sm (2016-cı il noyabrın 24-də 239 sm), Araz çayının Novruzlu məntəqəsində isə 95 sm (2016-cı il noyabrın 24-də 165 sm) təşkil edir.

**Kişilər!!! Diqqət!!! Axırıncı şans!!!**

**Əgər sizə Azərbaycanda, xaricdə kömək edə bilməyiblərsə, onda Dr. Vaiz Səmədov sizə kömək edə bilər**

* Cinsi zəiflik
* Cinsi marağın azalması
* Vaxtından tez toxum ifrazatı
* Toy gecəsinin uğursuzluqları
* Prostatitlər (vəzin böyüməsi)
* Prostat vəzinin düyünlü adenoması
* Sonsuzluq
* Sidik aktların pozulmaları
* Gərginlik, yuxusuzluq, yaddaşın pozulması və digər kişilərin şikayətləri.

**Oğlan uşaqlarında və yeniyetmələrdə**

* Enurez,
* Saçların tökülməsi,
* Sızanaqlar,
* Cinsi orqanların inkişafdan geri qalması (8-10 yaşından sonra).

**Doktor V.Səmədova saat 11:00-dan sonra, (050) 213-88-05 nömrəsi ilə əlaqə saxlamaq olar.**

Həkimin TV çıxışlarını youtube.com və facebook.com-da izləyə bilərsiniz.

# Masallıda tanınmış iş adamı sükan arxasında öldü



**Masallıda avtomobil divara çırpılıb. Lent az xəbər verir ki, Masallı şəhərinin mərkəzindəki Nəriman Nərimanov küçəsində "Mercedes" markalı avtomobil sürücünün idarəetməsindən çıxaraq yol kənarındakı evin divarına çırpılıb. İlkin araşdırmadan sonra məlum olub ki, avtomobili idarə edən 60 yaşlı kişi ürək tutmasından sükan arxasında vəfat edib. Nəticədə avtomobil idarətmədən çıxaraq qəzaya uğrayıb.**

Az sonra sürücünün kimliyi ilə bağlı bəzi təfərrüatlar məlum olub. Qafqazinfo xəbər verir ki, vəfat edən şəxs Kamran Əlməmmədovdur. O, rayonda tanınmış iş adamıdır. "Coca Cola Kamran" kimi tanınan biznesmen "Coca Cola"nın Masallı üzrə satış müdiri və bir neçə restoranın sahibidir. Onun maşında ürək tutmasından vəfat etdiyi deyilir.

YENİ MÜSAVAT
N 247 (6861) 27 noyabr 2017

# Dünya bu xanımları müharibəyə hazırlaşdırır

## Qadın əsgərlər barədə bilmədiklərimiz

**Saytlarda tez-tez dünyadakı qadın əsgərlərlə bağlı fotosessiyalar yayımlanır. Bir-birindən gözəl, cazibədar, mükəmməl bədən quruluşlu qadınlar bu və ya digər ölkələrin ordularında təmsil edilirlər. Fərqli uniformalar, sabit saç düzümləri... Bəli, indi dünya insanını qadın əsgərlərlə bağlı təəccübləndirmək qeyri-mümkündür. Amma bununla belə ortada bizim bilmədiyimiz, amma ilginc nüanslar var. Qadın əsgərlərin yaşam tərzi, qayda-qanuna riayət etmə mexanizmləri və daha nələr..**



"Yeni Müsavat" dünyadakı qadın orduları ilə bağlı maraqlı məlumatları araşdırıb və ortaya maraqlı nəticələr çıxıb.

### Hansı ölkənin qadınları əsgər getməyə məcburdur?

Statistika göstərir ki, İngiltərə ordusunun 9 faizi, Nepal ordusunun isə 40 faizi qadın döyüşçülərdir. Dünya ölkələri arasında yalnız İsraildə qadınlar üçün hərbi xidmət məcburidir. Bu ölkədə qadınlar 20 yaşda əsgər aparılır. Kişilərin 3 il hərbi xidmət etdiyi bu ölkədə qadınlar məcburi 2 il hərbi xidmətdə olur. Müsəlman ölkələri arasında isə ən çox qadın İran ordusundadır. Ukrayna ordusu da qadın əsgərlərin sayına görə dünyada qabaqcıl yerlərdən birini tutur. Bu ölkənin ordusunda 50 min qadın əsgər var.

Dünya ordularında qadınların böyük qismi əsasən, arxa cəbhə təminatı və qərargah işlərində çalışırlar. Yalnız İsrail, ABŞ, Rusiya, Çin, Şimali Koreya və Böyük Britaniya ordusunda qadınlar bilavasitə döyüş tapşırıqlarında iştirak edə bilirlər.

Sovetlər dönəmində Böyük Vətən müharibəsi zamanı qadın əsgərlərin sayı isə 800 mini keçirdi. Bu qadın əsgərlərin 70 faizi döyüş bölgəsində, səngərdə düşmənlə üzbəüz olub. Əvvəlki illərlə müqayisədə əhali artımında bir durğunluq yaranan Türkiyədə isə gələcəkdə orduda qadınlara da ehtiyac duyulacağı gözlənilir.

ABŞ prezidenti də bu yaxınlarda çıxışlarının birində bu məsələyə münasibət bildirdi və qadınlar ön cəbhədə xidmət etməsinin mümkünlüyünü vurğuladı.

### Norveç qadın əsgərləri dünyadakı müharibə bölgələrinə göndərilirlər

Digər ölkələrdə vəziyyət necədir? Norveç ordusunda desant olmaq istəyən qadınlar birgə yataqxanalarda qalmağa başlayıb. Norveç ordusunun 19%-ni əhatə edən qadın əsgərlər hazırda desant təhsili alaraq xarici ölkələrdəki müharibə bölgələrinə göndərilir. 2013-cü ilin fevral və mart aylarında elan verilib və 173 qadın müraciət edib. Bu qadınlar kişi hərbçilərlə eyni şərtlərdə təlim keçərək 2015-ci ildən vəzifəyə başlayıb. Bununla da hərbçi qadınlar xüsusi məntəqələrdə iştirak etmək hüququ qazanacaqlar.

Norveç ordusunda qadın hərbçilərin kişilərlə bərabər hüquqlara malik olmaları məsələsi uzun müddət müzakirə edilib. 2013-cü ilin aprel ayında iqtidardakı Sosial Demokrat Fəhlə Partiyası, Sosialist Sol Partiya və Sol Liberal Partiyasının müsbət səsləri qadınlara desant olmaq üçün yol açıb. Praktikaya görə, desant olmaq istəyən qadınlar kişilərlə eyni şərtlərdə təhsil alaraq təlim keçməlidir. Eyni yataqxanalarda qalan hərbçilər həttа eyni vannalardan istifadə etməlidir.

Ümumən isə dünyanın ən gözəl və ən ilginc ordusu Norveçə məxsusdur. Bu ölkənin ordusunda kişi və qadın əsgərlər eyni otaqda yatır. Hər otaqda 4 kişi və 2 qadın əsgər qalır. Orduya qoşulan qadınlar kişi əsgərlər kimi geyinir, onlarla eyni şərtlərdə təlim keçir və daim silahlı olur.

Məcburi hərbi xidmət qanunları səbəbindən əsgər gedən bu qadınlar vəziyyətlərindən narazı deyillər. Əksinə, onlar kişilərlə birlikdə olmağın döyüş ruhunu artırdığını düşünür. Norveç hökuməti tərəfindən ölkədə tətbiq olunan qadın və kişi əhali arasındakı cinsiyyət ayrı-seçkiliyini aradan qaldırmağı nəzərdə tutan proqram olduqca müvəffəqiyyətli nəticələr verməyə başlayıb.

Skandinaviya ölkəsi Norveç qadınlarla kişilərin eyni şərtlər daxilində məcburi əsgərlik xidməti etdikləri ilk NATO ölkəsi olub. Mövzuyla əlaqədar olaraq Norveç ordusunun nəzdində üç aya qədər başladılan ilk pilot tətbiqlərinin nəticələrindən hələlik hər kəs məmnundur. Orduda vəzifə yerinə yetirən qadın əsgərlər də eynilə kişi əsgərlər kimi geyinir, davamlı olaraq silah daşıyırlar. Ancaq qadın əsgərlərə saçlarını qısa kəsmək məcbur edilmir və onlara istədikləri menyunu seçmə imkanı verilir.

### İsrail qızları orduya gedir, amma müharibəyə yox

İsrailin qadın əsgərləri müharibədə iştirak etməmək şərtilə cəbhə bölgələrində xidmət çəkirlər. 18 yaşı tamam olan, görünüşcə gözəl olan qadınlar qısa müddətdə təlim keçirlər.

Onlara bir çox döyüş növləri, bundan əlavə, onlara silahlardan istifadə və hərbi texnikalardan istifadə öyrədilir.

Təlimdən sonra onlar avtomatla müharibə bölgələrində xidmət edirlər. Dünyadakı ən səs-küylü və zaman-zaman qalmaqallarla gündəmə gələn qadın ordusu isə İsraildə imiş. Məsələn, iki il öncə İsraildən olan qadın əsgərlərin "YouTube"a çəkib yüklədikləri yeni video böyük səs-küyə səbəb olub. Videoda bir neçə yarı-çılpaq israilli qadın əsgərin silah ətrafında oynadığı görünür.

Qadınların sifətlərinin aydın görünmədiyi video "İsrael TV"də nümayiş olunub. Videoda iki qadın otağın ortasında tutduqları tüfəng ətrafında fırlanır. Çəkilişdən əsgərlərin rəqsini çəkən şəxsin videonu facebook-a yerləşdirəcəyini deməsi eşidilir.

Xatırladaq ki, bir müddət əvvəl İsrail ordusunda daha bir qalmaqal yaşanmışdı. Yenə qadın əsgərlər yarıçılpaq şəkildə şəkillərini çəkərək facebook-a yükləmişdilər.

İsrailin geyim firmalarından biri hərbi stildə yeni kolleksiyasının təqdimatı üçün hazırladığı təqvimdə İsrail ordusunda xidmət edən qadın əsgərlərdən istifadə edib. Onlardan model kimi yararlanan şirkətin hazırladığı təqvim hazırda İsraildə 25 dollara, ölkədən kənarda isə 35 dollara satılır. "Dünyanın ən seksi əsgəri geyim tərzi" adlanan kolleksiyanın isə ən tezi 2015-ci ildən satışa çıxarılacağı bildirilir.

Yaponiya dövləti də qadın hərbçilərin ön cəbhədə xidmət etməsinə icazə verən qanun qəbul etməyə hazırlaşır. Bu barədə ictimaiyyətə "Mainichi" qəzeti məlumat yayıb. Qəzetin məlumatına görə, Yaponiya Müdafiə Nazirliyinin İş İnstitutu qadın əsgərlərlə bağlı qanun layihəsi hazırlayaraq hökumətə təqdim edib. Qeyd edək ki, qadın hərbçilərlə bağlı qanun layihəsinin hazırlanmasına səbəb Yaponiya əhalisinin sayında azalma müşahidə olunmasıdır. Yeni qanuna görə, xarici ölkələrdə xidmət edən qadın əsgərlər geri çağırılaraq Yaponiyanın ön cəbhələrinə göndəriləcək.

Türkiyə Silahlı Qüvvələrinin göz bəbəyi olan 4-cü Komando Tuqayında 4 qadın komandir var. Tunceli dağlarını qoruyan 4-cü Komando Tuqayındakı 4 qadın komandir heç də kişi hərbçilərdən geri qalmır. Qadın hərbçilər terrorla mübarizədə qaynar nöqtə olan Tunceli dağlarında qorxmadan xidmət edirlər. Onlar kişilərlə bir yerdə məşq edir. Və bütün normativlərdə cinsi ayrı-seçkilik yaşanmır.

NATO bünyəsində Əfqanıstanda vəzifə yerinə yetirən Birləşmiş Krallığın əsgərlərinin arasında çox sayda qadın əsgər var. Bu qadın əsgərlər digər əsgərlər kimi patrula çıxır, lazım olduğunda Talibanla qarşıdurmalara qatılır. İngilis qadın əsgərlərin bir vəzifəsi daha var. Yerli xalq ilə ünsiyyət qurmaq və onların etibarını qazanmaq. Foto müxbir Alison Baskerville Əfqanıstandakı ingilis qadın əsgərlərin gündəlik həyatlarını göstərmək üçün icazə alaraq, media ilə paylaşıb. Qadın əsgərlərin duşundan, yuyub asdıqları alt paltarlarına qədər hər cür xüsusiyyətlərini çəkən usta fotoqraf bunları ölkəsindəki bir qalereyada sərgilənib.

Hazırda Azərbaycan Silahlı Qüvvələrində zabit, gizir, çavuş və əsgər vəzifələrində təqribən 1000 nəfərə yaxın qadın hərbi qulluqçu xidmət edir. Bu barədə daha öncə medianın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib. Onun sözlərinə görə, qadınların hərbi xidmət keçməsi "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə ilə tənzimlənir və könüllü surətdə həyata keçirilir.

Qeyd edək ki, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin 26-cı maddəsinə əsasən Azərbaycan Respublikası vətəndaşları və digər şəxslər aşağıdakı hərbi xidmətlərə könüllü daxil ola və qəbul edilə bilərlər:

- əsgərlərin, matrosların və çavuşların müddətdən artıq həqiqi hərbi xidmətinə - qanunla müəyyənləşdirilmiş müddətli həqiqi hərbi xidməti başa çatdırmış hərbi qulluqçular, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlərdən, gizirlərdən və miçmanlardan başqa), habelə 19 yaşından 40 yaşınadək qadınlar;
- gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə - azı bir il hərbi xidmət keçmiş əsgərlər, matroslar, çavuşlar, 40 yaşınadək hərbi vəzifəlilər (zabitlərdən başqa), habelə 19 yaşından 40 yaşınadək qadınlar;
- zabitlərin həqiqi hərbi xidmətinə - hərbi xidmətdə olmağın son yaş həddinə çatmamış ehtiyatda olan zabitlər, habelə ilk zabit hərbi rütbəsi verilməklə 35 yaşınadək həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular, ehtiyatda olan hərbi vəzifəlilər və qadınlar.

Bu gün bir sıra dünya ölkələrində qadınlar könüllülük əsasında hərbi xidmət keçirlər. Xüsusən İkinci Dünya müharibəsində qadınların ön və arxa cəbhədəki fəallıqları onları sonrakı dövrlərdə hərbi sahədə daha çox təmsil olunmalarına səbəb oldu. Lakin qadınların bu sahədəki marağı heç də XX əsrdən deyil də, daha öncəki dövrlərdən, hətta bəzi mənbələrə görə 4000 il öncədən başlayır. Tariximizin istənilən dövrünü araşdırsaq, görərik ki, kifayət qədər hərb işi ilə məşğul olan, xarici düşmənlərə diz çökdürən sərkərdə qadınlarımız olub. Lakin təəssüf doğuran məqam odur ki, bu qadınların təbliği aktual deyil.

❑ **Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

Son səhifə

N 247 (6861) 27 noyabr 2017




## Gün ərzində 8 saatdan çox yatırsınızsa...

**Uorika universitetində aparılan araşdırmaya əsasən, 8 saatdan çox yatan yetkin şəxslərin daha erkən ölmək riskləri daha çoxdur. 9 və daha çox saat yatmağı sevənlərin ölmək riski 7-8 saat yatanlara nisbətən 30% daha çoxdur. Bunu 10 il ərzində milyondan çox insanın yatmaq davranışını izləyən araşdırma nəticəsində Uorika universitetinin elmi araşdırma işçiləri deyir.**

6 saatdan az yatanlar da risk qrupuna düşürlər - onların da normal yatanlarla nisbətdə ölmə riski 12% daha çoxdur. Çox yatmağı sevənlər tez-tez diabetə və depressiyaya tutulurlar, həmçinin ürək-damar sistemlərində tez-tez problemlər müşahidə olunur. Bu arada az yatmaq da ölümü tezləşdirən xəstəliklərə gətirib çıxarır.

Uorika universitetinin professoru Franko Kappuççionun nəticəsinə görə, optimal yatmaq müddəti 7-8 saat olmalıdır. Həmçinin Massaçusets universitetinin professoru Dr. Ceykobsun araşdırmasında da ən uyğun yatmaq müddəti 7 saat kimi göstərilir.

# 20 illik həbsdən sonra günahsız olduğu üzə çıxdı

**Qətl hadisəsində ittiham olunan italyanın 20 il türmədə yatandan sonra günahsız olduğu üzə çıxıb. Bu barədə "La Stampa" nəşri xəbər verir. Xəbərdə qeyd olunur ki, söhbət 55 yaşlı Fraqanyano şəhər sakini Ancelo Massarodan gedir. Daha öncə Katanzaro məhkəməsi onun suçlu olması barədə qərar çıxarmışdı.**



O, Lorenso Fersurellanın ölümündə ittiham olunaraq, 24 illiyinə azadlıqdan məhrum olunmuşdu. İstintaq materiallarından aydın olur ki, bu şəxsin qətldə ittiham olunmasına səbəb üçüncü şəxslərin verdiyi məlumatlar və yanlış detallar olub. İstintaq sübut edib ki, eşidilənlər heç də həqiqəti əks etdirmir. Bundan başqa ittiham olunan şəxsin vəkili də onun hadisə baş verən zaman başqa yerdə olduğunu sübut etməyi bacarıb. Son nəticədə məhz Ancelonun 22 il həbsinə qərar verən məhkəmə bu dəfə onun suçsuz olduğunu sübut edib və onun azadlığa çıxmasına qərar verib. Hazırda isə eks-məhbus qeyri-qanuni azadlıqdan məhrum edildiyinə görə Ədliyyə Nazirliyindən kompensasiya tələb edir.

# Keçmiş nazir avtobus sürücülüyü edəcək

**Hollandiyada prokurorluq etdiyi dönəmdə türmədəki bir narkotik qaçaqçısı ilə pul təmizləmə məsələsində anlaşdığının üzə çıxmasına görə istefa verən keçmiş nazir Fred Teeven bələdiyyə avtobusu sürücüsü olub. Uşaqlığından bəri beynəlxalq bir yük maşını sürücüsü olmağı xəyal edən keçmiş nazir ictimai nəqliyyat şirkəti olan Connexxionun iş elanını görüncə bu arzusunu gerçəkləşdirməyə qərar verdiyini söyləyib.**



Ancaq Teeven beynəlxalq yollar yerinə Hollanda içində bələdiyyə avtobusu sürücüsü olaraq sükan arxasına keçəcək. Ağır nəqliyyat vasitəsi idarə etmək üçün sürücülük vəsiqəsi olan Teeven başlanğıc təhsilini uğurla tamamlayıb. Şirkət sözçüsünün sözlərinə görə, keçmiş nazirin təhsili bir neçə həftə daha davam edəcək. Fred Teeven təhsilini tamamladığı zaman doğulduğu Arnhem şəhərində sərnişin daşımağa başlayacaq. Keçmiş nazir həftədə 2 gün - bazar ertəsi və cümə günləri bələdiyyə avtobusu sürücülüyü edəcək. Həftənin digər günlərində isə o, keçmiş bir məsləkdaşı ilə qurduğu təhlükəsizlik və kiber cinayətlərlə bağlı məsləhətxanada çalışacaq.

Daxili işlər naziri Sander Dekker deyib ki, Teeven kimi güclü birinin arxasında əyləşmək sərnişinlərə güvən verəcək. Bir gün keçmiş məsləkdaşının idarə etdiyi avtobusa minmək istədiyini söyləyən Dekker "İşsiz-gücsüz evdə oturmaq yerinə avtobus sürür. Nə qədər gözəldir".




**QOÇ** - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**BUĞA** - Səhər saatlarını gərgin şəraitdə keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Nahardan sonra isə sevindirici hadisələrin şahidi olacaqsınız.

**ƏKİZLƏR** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, göstərilən təqvimdə uzaq yola çıxmaq olmaz.

**XƏRÇƏNG** - Ayın ən uğurlu gününü yaşayacaqsınız - desək, yanılmarıq. Çünki bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək.

**ŞİR** - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

**QIZ** - Ümumi çalarlarına görə gərgin gün olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**TƏRƏZİ** - Həddindən ziyadə uğurlu təqvimdir. Ələlxüsus da saat 12-16 arası bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiyəcək. Amma bugünkü təkliflərdən imtina etməlisiniz.

**ƏQRƏB** - Hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Yalnız saat 16-17 aralığı uğurludur. Axşama yaxınsa qonaq getmək olar.

**OXATAN** - Bürcünüzün uğurlu günlərindən birini yaşayacaqsınız. Düzdür, saat 12-ə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Müəyyən sürprizlər də gözlənilir.

**OĞLAQ** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək məharət deyil.

**SUTÖKƏN** - Kifayət qədər uğurlu bir gün yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**BALIQLAR** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ana südü içən uşaqlar daha zəkalı imiş



**Ana südü ilə qidalanan uşaqlarla bağlı maraqlı araşdırma aparılıb. "Milliyet" qəzetinin xəbərinə görə, bu məqsədlə 1300 qadın və uşağın illər boyu davranış və inkişaf sxemi araşdırılıb. Uşaqlar 3 yaşına çatanda onlara dil testi keçirilib. Araşdırmaçılar müəyyənləşdirib ki, körpə ikən 6 ay boyunca əmizdirilən uşaqlar heç əmizdirilməyənlərdən 3 bal daha yüksək nəticə göstərib. 7 yaşına çatanda uşaqlar İQ testindən də keçirilibər. 1 il boyunca əmizdirilən uşaqlar əmizdirilməyənlərlə müqayisədə 4 bal daha yüksək göstərici əldə edib. Araşdırmaçılara görə, əgər körpələrdən biri digərindən 1 ay daha artıq ana südü ilə qidalanıbsa, bu, onun zəka göstəricilərinə 1/3 bal təsir edir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100